

Milli azadlıqdan şirin nemət yoxdur!

# İlham Əliyev yenidən Azərbaycan Milli Olimpiya Komitəsinin prezidenti seçilib

Azərbaycan Prezidenti İlham Əliyev yenidən Milli Olimpiya Komitəsinin (MOK) prezidenti seçilib.

MOK-un IX Hesabat-seçki baş məclisində dövlətimizin başçısı yekdilliklə növbəti 4 il müddətinə qurumun rəhbəri seçilib.

Baş məclisdə, həmçinin İcraiyyə Komitəsinin və Təftiş Komissiyasının üzvlüyünə də seçkilər keçirilib.

Prezident İlham Əliyev, eyni zamanda, Azər Əliyev, Çingiz Hüseynzadə, Zemfira Meftahətdinova, Fərid Mansurov, Elnur Məmmədli, Faiq Qarayev, Alla Həsənova, Nazim Hüseynov və Namiq Abdullayev MOK-un İcraiyyə Komitəsinin üzvləri seçiliblər.




YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

19 fevral 2025-ci il, çərşənbə № 030 (6858) Qiyməti 60 qəpik


# Prezident və birinci xanım Ağdamda...



Bax səh. 2

## Münasibətlərdə yeni mərhələ

Bax səh. 3

## Azərbaycan üçün maneəsiz yol...



Bax səh. 3

## Üç qardaş ölkənin yeni enerji formatı

Bax səh. 4

### Dünyada etnik, dini və irqi ayrı-seçkiliyin artdığı bir vaxtda...

Beynəlxalq səviyyədə müşahidə edilən ziddiyyətli proseslər fonunda Respublikaçılar Partiyasının təmsilçisi Donald Trampın ABŞ-ın 47-ci prezidenti kimi fəaliyyətə başlaması...

Bax səh. 4

### Yeni hədəflər...

Fevralın 17-18-də İranın paytaxtı Tehranda Xəzəryanı dövlətlərin iştirakı ilə Üçüncü Xəzər İqtisadi Forumu keçirilib. Forumda Azərbaycan, İran, Rusiya, Türkmənistan və Qazaxıstanın hökumət başçıları, nəqliyyat və ticarət qurumlarının rəhbərləri, iş adamları və digər şirkətlərin nümayəndələri iştirak ediblər. Forumda nəqliyyat, tranzit, ticarət, bank sahələrində əməkdaşlıq əlaqələrinin perspektivləri müzakirə...

Bax səh. 5

### Durbinlər bu dəfə Qazax istiqamətinə yönəldi...

Ermənistanın Azərbaycanla sərhəd ərazilərində fəaliyyət göstərən Aİ-nin "müşahidə missiyası" avantürist addımlarını davam etdirir - onlar bu dəfə Azərbaycanın Qazax və Qubadlı rayonu istiqamətinə gəliblər. Görüntülərdən aydın olur ki, Ermənistanla Azərbaycan arasındakı...

Bax səh. 5

### ABŞ Ukraynaya nüvə silahı verəcək?

ABŞ-ın müdafiə naziri - Pentaqonun rəhbəri Pit Heqset Ukrayna ilə bağlı maraqlı açıqlamalar verib. O, "Breitbart News"-a müsahibəsində Ukraynaya nüvə silahının verilməsi ehtimalını inkar etməyib. Heqset vurğulayıb ki, bu barədə qərarın verilməsi ABŞ Prezidenti Donald...

Bax səh. 7

## Brüssel ilə Vaşinqton arasındakı çəkişmə böyüyür...



Bax səh. 6

## Seçkiyə sayılı günlər qalır...



Bax səh. 6

# Prezident və birinci xanım Ağdamda...



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva fevralın 18-də Ağdam şəhərində "Hilton Garden İnn" hotelində aparılan tikinti işləri ilə tanış olublar.

AZƏRTAC xəbər verir ki, Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov dövlətimizin başçısına və birinci xanıma oteldə görülən işlər barədə məlumat verib.



Bildirilib ki, "Hilton Garden İnn" hoteli Ağdam şəhər mərkəzinə yaxın ərazidə inşa olunub.

Ümumi sahəsi 2,16 hektar olan hotel 2, 6 və 7 mərtəbəli 3 bloklu binadan ibarətdir. Ən müasir standartlara cavab verən hotel binasında 127 otaq var, qonaqların zövqünü oxşayan interyer işləri görülüb.

Müasir hoteldə qonaqların sağlamlığını və istirahətini təmin etmək məqsədilə hovuz, fitnes və SPA mərkəzləri də yaradılıb.



Bildirildi ki, hoteldə işlərin icrası 60 faiz yerinə yetirilib.

"Hilton Garden İnn" hotelində 100-dən çox işçinin fəaliyyət göstərməsi nəzərdə tutulub.

Ağdam rayonunda ən müasir standartlara cavab verən hotellərin inşası sürətlə dirçəldilən tarixi ərazilərimizin inkişafına mühüm töhfə verəcək. Bu, həm də işğaldan azad edilən ərazilərimizdə, o cümlədən Ağdam rayonunda sosial layihələrin davamlı şəkildə həyata keçirilməsinin növbəti nümunəsidir.



***

Prezident İlham Əliyev "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin (ASC) Ağdam Regional Rəqəmsal İdarəetmə Mərkəzi və Təlim-Tədris Kompleksinin açılışında iştirak edib.

"Azərişıq" ASC-nin sədri Vüqar Əhmədov dövlətimizin başçısına Mərkəzdə görülən işlər barədə məlumat verib.

Qeyd edək ki, Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq, Azərbaycanın işğaldan azad edilən ərazilərində elektrik şəbəkələrinin qəza vəziyyətindən çıxarılması, enerji təhlükəsizliyinin təmin olunması və yaradılacaq infrastrukturların elektrik enerjisi ilə təchizatı üçün "Azərişıq" ASC tərəfindən genişmiqyaslı təmir, yenidənqurma və tikinti işləri aparılır. Ağdam şəhərinin Baş Planına uyğun olaraq, şəhər ərazisində 35/0,4 kilovoltluq iki transformator məntəqəsi inşa edilib. Bu məntəqələr güc mərkəzləri olaraq, ilk mərhələdə ətrafda salınacaq yeni yaşayış sahələrini elektrik enerjisi ilə təmin edəcək. Baş Planda həmin transformator məntəqələrinin digər yaşayış sahələri üçün inşa ediləcək güc mərkəzləri ilə əlaqələndirilməsi və dairəvi elektrik təchizatı sxeminin yaradılması nəzərdə tutulub. Eyni zamanda, şəhərdə Baş Plana uyğun yaradılacaq müxtəlif təyinatlı infrastrukturun keyfiyyətli və dayanıqlı elektrik enerjisi ilə təmin olunması məqsədilə Ağdam Regional Rəqəmsal İdarəetmə Mərkəzinin tikintisi həyata keçirilib. Prezident İlham Əliyev tərəfindən 2023-cü il mayın 2-də təməli qoyulan bu Regional Rəqəmsal İdarəetmə Mərkəzi yüksək səviyyədə inşa olunub.

Mərkəz şəhərin müxtəlif təyinatlı infrastrukturunun elektrik enerjisinə tələbatını ödəməklə yanaşı, təchizat sxeminə daxil olan şəbəkələrin real vaxt rejimində və rəqəmsal formatda idarə olunmasını təmin edəcək. Müasir tipli Mərkəz vasitəsilə ətraf ərazilərin də elektrik təchizatının etibarlılığına və dayanıqlılığına nəzarət təmin olunacaq. Eyni zamanda, burada mühəndis-texniki heyətin səmərəli işini təmin edən müasir avadanlıqlarla təchiz olunmuş iş otaqları, vətəndaş qəbulu üçün lazımi şərait yaradılıb.

Prezident İlham Əliyev "Azərişıq" ASC-nin Ağdam Regional Rəqəmsal İdarəetmə Mərkəzini işə salıb.

Təlim-Tədris Kompleksində beynəlxalq tədbirlərin keçirilməsi üçün bütün zəruri şərait yaradılıb. Burada yerli və xarici təlimçilərin iştirakı ilə elektroenergetika sahəsi üzrə ixtisaslı kadrların hazırlığı, bərpaolunan enerji mənbələrinin tətbiq və istismar qaydaları, peşə vərdişlərinin əldə edilməsi, real iş şəraitində təlimlər və ustalıq yarışları təşkil ediləcək. Kompleksdəki tədris zalı 35/0,4 kilovoltluq müasir şəbəkə modelinin, 35 və 0,4 kilovoltluq fiber-optik kabellərin, kompozit şüşə-lifli dayaqların tətbiq sahələrinin perspektiv inkişafı və üstünlüklərinin əyani şəkildə təqdim edilməsi üçün nəzərdə tutulub.

***

Prezident və birinci xanım Ağdam Muğam Mərkəzində görülən tikinti işləri ilə tanış olublar.

Dövlətimizin başçısına və birinci xanıma Muğam Mərkəzində görülən işlərlə bağlı məlumat verilib.

Ümumi sahəsi 1,4 hektar olan Mərkəzin birinci mərtəbəsində kafe, kinozal, kitabxana və iki rəqs zalı yaradılıb. Buradakı 507 yerlik konsert zalında müxtəlif mədəni tədbirlər, o cümlədən muğam gecələri təşkil etmək üçün hərtərəfli şərait var.

İkinci mərtəbədə inzibati otaqlar yerləşir. Mərkəzdə 14 dərs otağı, sərgi salonu, iclas zalı, müəllimlər otağı və digər otaqlar fəaliyyət göstərəcək.

Ağdam Muğam Mərkəzinin ərazisində 1250 kvadratmetrlik açıq amfiteatr da inşa edilib.

Tikinti-quraşdırma işləri artıq yekunlaşmaq üzrədir. Hazırda tamaşa zalında, binanın çöl hissəsində son tamamlama işləri görülür, müvafiq avadanlıq və mebellər quraşdırılır.

Qeyd edək ki, muğamın təbliği və inkişafı istiqamətində dövlətimiz tərəfindən son illərdə görülən işlərə Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da mühüm töhfələr verir. Fondun həyata keçirdiyi layihələrin nəticəsidir ki, Azərbaycan muğamı UNESCO-nun "Bəşəriyyətin şifahi və qeyri-maddi irsinin şah əsərləri" siyahısına salınıb.

Xatırladaq ki, Ağdam Muğam Mərkəzinin təməli 2023-cü il mayın 2-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tərəfindən qoyulub.

***

İlham Əliyev və Mehriban Əliyeva "Ağdam Residence" yaşayış kompleksində yaradılan şəraitlə tanış olublar.

Dövlətimizin başçısına və birinci xanıma görülən işlərlə bağlı məlumat verilib.

Ümumi sahəsi 1,55 hektar olan ərazidə ilkin 6 yaşayış binası inşa edilib. Kompleksdəki binalar 6 mərtəbəlidir və ümumi blokların sayı 11-dir.

Dövlətimizin başçısı və birinci xanım yaşayış kompleksində hazır mənzillərə baxıblar.

Mənzillərin 45-i birotaqlı, 108-i ikiotaqlı, 48-i üçotaqlı, 8-i isə dördotaqlıdır.

Kompleksdə tikinti-quraşdırma işləri artıq yekunlaşıb. Sakinlərin rahat yaşayışı üçün kompleksin ərazisində park, istirahət guşələri, sosial-məişət obyektləri, avtodayanacaqlar, velosiped yolları, uşaq oyun və idman meydançaları istifadəyə veriləcək, geniş abadlıq və yaşıllaşdırma işləri görüləcək.

Qeyd edək ki, Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 2022-ci il fevralın 13-də yaşayış kompleksinin təməlqoyma mərasimində iştirak ediblər.

***

Prezident və birinci xanım Ağdam şəhərində 1268 mənzilli 2-ci yaşayış kompleksində aparılan tikinti işləri ilə tanış olublar.

Dövlətimizin başçısına və birinci xanıma məlumat verilib ki, ümumi sahəsi 14 hektara yaxın olan yaşayış kompleksi Ağdamın mərkəzi küçəsində, şəhərin təsdiq edilmiş Baş Planına uyğun salınıb. Burada tikilən yaşayış binalarındakı mənzillərdən 114-ü birotaqlı, 464-ü ikiotaqlı, 536-sı üçotaqlı, 154-ü isə dördotaqlıdır.

Ərazisinin böyük bir hissəsi yaşıllıq zonasından ibarət olacaq kompleksdəki binaların inşasında modern memarlıq yanaşmalarından və milli naxış elementlərindən istifadə olunur. Burada idman meydançalarının, istirahət guşələrinin, velosiped dayanacaqlarının və digər zəruri infrastruktur obyektlərinin yaradılması nəzərdə tutulur.

***

İlham Əliyev və Mehriban Əliyeva Ağdam şəhərində 1 nömrəli körpələr evi-uşaq bağçasında aparılan tikinti işləri ilə tanış olublar.

Elm və təhsil naziri Emin Əmrullayev dövlətimizin başçısına və birinci xanıma körpələr evi-uşaq bağçasında görülən işlər barədə məlumat verib.

Qeyd edilib ki, 160 yerlik körpələr evi-uşaq bağçasının tikintisinə 2023-cü ildə başlanılıb. Zirzəmi və iki mərtəbədən ibarət binanın ümumi sahəsi 2700 kvadratmetrdən çoxdur. Burada müxtəlif otaqlar, uşaqların təlim-tərbiyəsi üçün bütün zəruri şərait yaradılacaq.

***

Prezident və birinci xanım Ağdam şəhər 1 nömrəli tam orta məktəbdə aparılan tikinti işləri ilə tanış olublar.

Dövlətimizin başçısına və birinci xanıma görülən işlər barədə məlumat verilib.

Ümumi tikinti sahəsi 4300 kvadratmetrdən çox olan yeni məktəb binası üç mərtəbədən ibarətdir. Təməli 2021-ci ilin mayında qoyulan məktəb 960 şagird yerlikdir. Burada kitabxana, muzey, iki yeməkxana, fənn kabinetləri ilə yanaşı, fizika, kimya, biologiya laboratoriyaları, akt və idman zalları, həmçinin 8 STEAM otağı olacaq.

Məktəbin tikintisinin 2025-ci ildə başa çatdırılması nəzərdə tutulur.

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dövlətinin işğaldan azad olunmuş ərazilərdə həyata keçirdiyi bərpa və yenidənqurma prosesi çərçivəsində müasir, innovasiyalara əsaslanan təhsil ocaqlarının yaradılmasına xüsusi diqqət göstərilir. Hazırda inşası davam etdirilən Ağdam şəhər 1 nömrəli tam orta məktəb bunun daha bir nümunəsidir. Bu orta təhsil müəssisəsi Böyük Qayıdış Proqramı çərçivəsində şəhərə qayıdacaq şagirdlərin müasir standartlara uyğun təhsil almalarına xidmət edəcək.



***

İlham Əliyev və Mehriban Əliyeva Əsgəran qala-kompleksinin konsepsiya layihəsi ilə tanış olublar.

Mədəniyyət naziri Adil Kərimli və Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Prezidentin xüsusi nümayəndəsi Elçin Yusubov dövlətimizin başçısına və birinci xanıma layihə barədə məlumat veriblər.



Bildirilib ki, Əsgəran qala-kompleksinin dizayn layihəsi "Mədəni və təbii irs", "İnfrastruktur və xidmətlər", "Əyləncə və istirahət", "Marketinq və təşviqat" olmaqla, 4 istiqaməti əhatə edən konsept üzrə hazırlanıb. Layihəyə əsasən, qalanın konservasiyası, möhkəmləndirilməsi, arxeoloji qazıntıların aparılması və açıq səma altında tarixi parkın yaradılması nəzərdə tutulur.



Qala ərazisində müxtəlif rekreasiya xidmətlərinin də təklif olunduğu yaşayış kompleksinin inşası, daxili yol şəbəkəsinin (piyada və nəqliyyat) hazırlanması planlaşdırılır.

Kompleks ərazisində ilin dörd fəslində festival və mədəni tədbirlərin keçirilməsi, idman, istirahət və əyləncə, ticarət, ictimai iaşə və digər sahələr üzrə müvafiq infrastrukturun yaradılması nəzərdə tutulur.

Xatırladaq ki, Qarabağın hakimi Pənahəli xanın göstərişi ilə inşa olunan XVIII əsrə aid Əsgəran qalası Azərbaycan memarlığının nadir nümunələrindəndir.

Qeyd edək ki, Azərbaycan dövləti xalqımızın milli-mədəni irsinin qorunub saxlanmasına xüsusi diqqət və qayğı göstərir. Torpaqlarımız işğal altında olduğu dövrdə Ermənistan tərəfindən dağıdılan, məhv edilən irsimiz, o cümlədən tarixi, dini abidələrimiz bu gün dövlətimizin tərəfindən təmir-bərpa edilir, yenidən qurulur. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu bu işlərə mühüm töhfə verir. Fond tərəfindən bu istiqamətdə aparılan işlərə Şuşada Molla Pənah Vaqifin muzey-məqbərə kompleksinin, Vaqifin büstünün, görkəmli bəstəkar Üzeyir Hacıbəylinin heykəlinin Şuşada yenidən qurulmasını, eyni zamanda, Mehmandarovların malikanə kompleksinin təmirini, Zəngilan məscidinin tikilməsini, Ağdam Cümə məscidinin bərpasını və s. misal göstərmək olar. Bütün bu işlər, eyni zamanda, bölgənin turizm potensialının inkişafına müsbət təsir göstərir. Bu baxımdan, Əsgəran qala-kompleksinin bərpası, tarixən malik olduğu şöhrətinin özünə qaytarılması xalqımızın çoxəsrlik zəngin mədəniyyətinin, memarlıq və şəhərsalma sənətinin tanıdılmasına xidmət edir.





# Münasibətlərdə yeni mərhələ

## Səfirliyimizin fəaliyyətinin bərpası Azərbaycan-Suriya əlaqələrinin inkişafına təkan verəcək

Azərbaycan 13 illik fasilədən sonra Suriyanın paytaxtı Dəməşqdəki səfirliyinin fəaliyyətini bərpa edib. Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən verilən məlumata görə, səfirliyin müvəqqəti işlər vəkili artıq Dəməşq şəhərinə ezam edilib və fəaliyyətə başlayıb.

Azərbaycan beynəlxalq hüququn prinsiplərinə əsaslanaraq, Suriyada davamlı sülhün və sabitliyin bərqərar olmasını dəstəkləyir. Azərbaycan və Suriya arasında dostluq və əməkdaşlıq əlaqələrinin keyfiyyətcə yeni mərhələyə qədəm qoyması, siyasi, iqtisadi, mədəni və digər sahələrdə tərəfdaşlığın inkişaf etdirilməsi üçün yeni imkanların yarandığı bu vacib dövrdə səfirliyimiz Suriyanın keçid dövrü hökuməti ilə yaxından əməkdaşlıq edərək, ikitərəfli əlaqələrimizin inkişafına dəstək verəcək.

Qeyd edək ki, fevralın 15-də Azərbaycan Prezidenti İlham Əliyev Suriya Ərəb Respublikasının keçid dövrü Prezidenti Əhməd əl-Şaraaya təbrik məktubu göndərib. Məktubda bildirilib: “Suriya Ərəb Respublikasının keçid dövrü Prezidentinin vəzifəsinin icrasına başlamağınız münasibətilə Sizi təbrik edir, xalqınızın rifahı naminə məsul fəaliyyətinizdə uğurlar arzulayıram. Biz Azərbaycan ilə Suriya arasında dostluq və əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsinə böyük önəm veririk”. Dövlət başçısı qeyd edib ki, Azərbaycan Suriyanın bu mühüm keçid dövründə lazımi dəstək və yardım göstərməyə hazırdır: “Bu gün Azərbaycan-Suriya münasibətlərinin keyfiyyətcə yeni səviyyəyə yüksəlməsi və əməkdaşlığımızın yeni məzmunla zənginləşdirilməsi üçün yaxşı imkanlar yaranmışdır”.

Xatırladaq ki, Suriya ilə Azərbaycan arasında diplomatik münasibətlər 1992-ci ilin martın 28-də qurulub. Suriya ilə Azərbaycanı birləşdirən ortaq dəyərlərdən biri türkmənlərdir. Bu ölkənin köklü sakinlərindən olan türkmənlər ata və oğul Əsəd hakimiyyəti illərində assimilyasiyaya məruz qalıblar.

Suriyada yeni qüvvələrin hakimiyyətə gəlişində türkmənlər də fəal iştirak ediblər. Onlar ölkədə, nəhayət, milli hüquqlarının tanınacağı və bərpa olunacağını istəyirlər. Türkmənlər Suriyada ərəblərdən sonra ikinci böyük icmadır. Bu, həm də o deməkdir ki, onların ana dili ölkədə aparıcı rollardan biri olması daha ədalətli addım sayılardı. Ancaq hələ ki yeni hakimiyyət bu istiqamətdə türkmənlərə söz verməyib. Onların ikinci bir istəyi isə Əsəd rejimi dövründə baş verən torpaq zəbtlərinə son qoyulması və türkmən icmasına qarşı haqsızlıqların aradan qaldırılmasıdır.

Azərbaycan üçün xarici ölkələrdə türklərin ana dilində təhsil alması prioritet məsələdir. Çünki öz dilində təhsil insan hüquqlarının təmin olunmasının başlıca maddəsidir. Ona görə əsədlər hakimiyyətindən fərqli olaraq, yeni siyasi qüvvələr türkmənlərin bu hüququnu tanıyıb, uyğun addımlar atacağı ehtimalı az deyil. Azərbaycan üçün türkmənlərin hüquqlarının qorunması da Suriya ilə münasibətlərin inkişafına təkan verə bilər.

Rəsmi Bakı Suriyadakı hadisələrə birmənalı münasibət göstərib. Dövlətimiz daxili münaqişə dövründə Bəşər Əsəd rejiminin mövqeyini dəstəkləməyib. Ermənistan hakimiyyəti isə Əsəd rejimi ilə əməkdaşlıq edib. Məsələn, 2023-cü il noyabrın 15-də Ermənistan parlamentinin sədr müavini Akop Arşakyanın başçılıq etdiyi nümayəndə heyəti Bəşər Əsədlə görüşüb. Arşakyan görüşdə qeyd etmişdi ki, Suriya ilə əlaqələri inkişaf etdirməyə hazırdırlar. Əsəd isə demişdi: “Ermənistanın problemləri bizə yad deyil. Biz onu problemlərin və çətinliklərin öhdəsindən gəlməkdə dəstəkləyirik”. ABŞ isə Ermənistan hakimiyyətinin Əsəd rejimi ilə əlaqələrini “diktatora yardım” kimi qiymətləndirmişdi. Bu il yanvarın 27-də Ermənistan xarici işlər nazirinin müavini Vaan Kostanyan Dəməşqdə səfərdə olub. Orada Suriyanın xarici işlər naziri Əsəd əl-Şaybani ilə görüşüb.

Hazırda Suriyanın yeni hakimiyyətinin qarşısında dayanan əsas vəzifələrdən biri ölkə daxilində terror təşkilatlarına qarşı mübarizə aparmaqdır. Qardaş Türkiyə də Suriyada terrorçuların kökünün kəsilməsinin vacibliyini bəyan edib. Azərbaycan uzun illər terrordan əziyyət çəkən ölkə olduğu üçün terrora qarşı fəal mübarizə aparıb. Şuşa Bəyannaməsində də bu istiqamətdə Türkiyə ilə birgə mübarizə öz əksinin tapıb. Bu baxımdan, Azərbaycan terrora qarşı mübarizədə də rəsmi Dəməşqlə əməkdaşlıq edə bilər.

Ümumiyyətlə, Azərbaycanın Suriya ilə milli-mədəni, siyasi-diplomatik, terrora qarşı birgə mübarizə, karbohidrogen yataqlarının kəşfiyyatı və birgə istismarında da geniş əməkdaşlıq etmək imkanı var. Bu baxımdan, Suriyada başlayan yeni dövr ölkələrimiz arasında əlaqələrin inkişafına təkan verə bilər.

*Nardar BAYRAMLI*

# Azərbaycan üçün maneəsiz yol...

## Zəngəzur dəhlizi Naxçıvanla əlaqədə mühüm amildir

**Azərbaycan ilə Ermənistan arasında sülhlə bağlı proses mühüm bir mərhələyə qədəm qoyub. Bir ildən artıqdır ik, ikitərəfli formatda irəliləyən danışıqlar formatı müəyyən nəticələrə nail olub - xüsusilə, sülh sənədinin demək olar ki, mütləq hissəsinin razılaşdırılması ilə bağlı xəbər il ərzində sənədin yekun imzalanmaya təqdim olunma ehtimalını artırır. Təbii ki, Ermənistan öz öhdəliklərini yerinə yetirəcəyi halda Azərbaycan üçün sülh məsələsi hər zaman aktualdır. Xüsusilə, Zəngəzur dəhlizi ilə bağlı məsələ İrəvan tərəfindən həyata keçirilməlidir. Qeyd edək ki, Prezident İlham Əliyev hər zaman bildirib ki, Ermənistan Azərbaycandan Azərbaycana maneəsiz getmək üçün bizə yol verməlidir.**

### Ermənistan ictimaiyyəti razıdır - reallıq odur ki...

Ermənistanın bu məsələ ilə bağlı mövqeyi fərqlidir. Belə ki, Azərbaycan dövləti Zəngəzur dəhlizi vasitəsilə Naxçıvana gediş-gəlişin maneəsiz şəkildə təmin olunmasını tələb edir. Ermənistan isə dəhlizi “öz nəzarətinə” almağa çalışır. Bir müddət öncə keçirdiyi mətbuat konfransında baş nazir Nikol Paşinyan bildirmişdi ki, Ermənistan Naxçıvanla Azərbaycanın qərb hissəsi arasında maneəsiz dəmir yolu əlaqəsinin əleyhinə deyil, lakin Ermənistanın yurisdiksiyası çərçivəsində.

Təbii ki, bu məsələ Ermənistan ictimaiyyəti tərəfindən də hər zaman aktual saxlanılır - nəzərə alsaq ki, Zəngəzur dəhlizinin açılması həm də Ermənistan üçün mühüm inkişaf perspektivləri vəd edir, bu ölkənin siyasi kəsiminin də məsələyə baxışı maraq doğurur. Məsələn, deputat Qeqam Manukyan iddia edir ki, İrəvan Bakıya öz şərtlərini təqdim edib: “İstisna edilmir ki, Ermənistan hökuməti Azərbaycana öz ərazisindən yoxlamasız yük daşımaq hüququnu təklif edib”. Hakim “Mülki Müqavilə” Partiyasından olan deputat Arman Yeqoyan isə məsələni bir qədər dəqiqləşdirərək deyib: “Azərbaycan və ya digər ölkələrdən Ermənistan ərazisindən daşınan istənilən yük nəzarətə götürülməlidir. Yoxlama olmayacaq, amma nəzarət olmalıdır”.

Öz növbəsində erməni ekspert Alen Qevondyan hesab edir ki, dəhliz məsələsi çoxdan həll olunub. Onun sözlərinə görə, Ermənistan hökuməti Zəngəzur dəhlizi məsələsinə hələ 2021-ci ildə razılıq verib, bu gün mövzunun uzanmasına səbəb erməni cəmiyyətinin razı salına bilinməməsidir. “Hraparak” qəzeti də yazıb ki, Nikol Paşinyan Zəngəzur dəhlizi ilə bağlı Azərbaycanla razılaşıb. İddialara görə, Azərbaycanla dəhliz məsələsinin müzakirə edilmədiyini deyən hakim qüvvələr “maneəsiz keçid” anlayışını gündəmə gətiriblər və insanları tədricən buna hazırlayırlar. Qəzet bildirir ki, maneəsiz keçid rejimində Azərbaycanla Naxçıvan arasında yüklər yoxlamasız keçəcək və yola nəzarət olmayacaq. İrəvanda bu qəbil diskussiyalar göstərir ki, dəhlizin açılması an məsələsidir. Sadəcə, onun statusu və mexanizmi mübahisəlidir.

### Zəngəzur dəhlizi Ermənistana nə vəd edir?




Göründüyü kimi, Ermənistanın ictimai rəyi də artıq bu həqiqəti əxz edə bilib - Zəngəzur dəhlizi Azərbaycandan Azərbaycana rahat və maneəsiz yol olduğu qədər Ermənistan üçün mühüm iqtisadi platformadır. Post-müharibə dövründə regional inkişafın əsas ünsürlərindən birini məhz Zəngəzur dəhlizi - Şərq-Qərb logistik ticarət və yükdaşıma yolu, onun elementləri, keçid məntəqələri və marşrutları təşkil edə bilər. Çünki Zəngəzur dəhlizi Şərq-Qərb marşrutu üzərində ən qısa yol olmaqla istər Qərb, istərsə də Şərq kontingentindən olacaq tərəfdaşlar üçün effektiv xarakter daşıyır. İnfrastruktur baxımından da Zəngəzur dəhlizi olduqca əlverişlidir. Dəhlizin Azərbaycandan keçən hissəsində işlər tam hazırdır. Zəngəzur dəhlizinin ən mühüm üstünlüklərindən biri isə Avropa ilə Asiyanı birləşdirməklə yanaşı, Yaxın Şərq regionuna da yaxınlığıdır. Türkiyə vasitəsilə təkcə Avropaya deyil, eləcə də Yaxın Şərqə çıxış imkanı qazanacaq layihə tərəfdaşları bu üstünlükdən də yararlanmış olacaqlar. Bu isə Ermənistana mühüm üstünlüklər vəd edir. Dəhlizin açılması Ermənistanın iqtisadi potensialında mühüm dəyişikliklərə yol açacaq. Bütün bölgə dövlətləri bu xətt vasitəsilə birləşəcək və yeni iqtisadi güc müstəvisi yaradacaq ki, burada da Ermənstan üçün böyük dividendlər gözlənilir...

*P.İSMAYILOV*

### Dünyada etnik, dini və irqi ayrı-seçkiliyin artdığı bir vaxtda...

# Azərbaycan nümunə kimi çıxış edir

## Ölkəmizdəki dini konfessiyalar ABŞ Prezidenti Donald Trampa məktub ünvanlayıblar

Beynəlxalq səviyyədə müşahidə edilən ziddiyyətli proseslər fonunda Respublikaçılar Partiyasının təmsilçisi Donaqld Trampın ABŞ-ın 47-ci prezidenti kimi fəaliyyətə başlaması dünyada yeni transformasiyalara keçid ediləcəyinə, xüsusilə də ənənəvi dəyərlərin aşınmasının qarşısının alınacağına böyük ümidlər yaradıb. O cümlədən Azərbaycandakı dini konfessiyaların ABŞ Prezidenti Donald Trampa ünvanladıqları məktubda Ağ Evin yeni administrasiyasının verdiyi mesajların ölkəmizdə də rəğbətlə qarşılandığına diqqət çəkilib. Məktubu respublikamızdakı müsəlman və qeyri-müsəlman dini icmaların təmsilçiləri imzalayıblar.

### Dünyada nadir məkanlardan biri

Məktubda ilk növbədə Azərbaycanın hər cəhətdən nümunəvi olan multikultural mühitinə diqqət çəkilir. Azərbaycanda multikulturalizm həm tarixi ənənədir, həm də bu günün reallığıdır. Bu, bir tərəfdən Azərbaycanın dövlət siyasətidir, eyni zamanda, cəmiyyətimizin istəyidir. Respublikamızda ayrı-ayrı konfessiyalara mənsub olan insanlar dinc, yanaşı yaşayırlar və onlar arasında hər hansı bir fərq qoyulmur. Azərbaycan insanı milli, dini fərqliliyi bizi ayıran cəhət kimi deyil, cəmiyyətimizi daha monolit edən, milli gücümüzü artıran amil kimi dəyərləndirir. Vətənimiz Azərbaycan dünyada dini və mədəni müxtəlifliyin mənəvi sərvət kimi qəbul edildiyi nadir məkanlardan biridir. Biz fəxr edirik ki, dünyanın bir çox yerində islamofobiya, antixristianlıq və antisemitizm kimi etnik, dini və irqi ayrı-seçkiliyin artdığı bir vaxtda Azərbaycan müsəlmanların, xristianların, yəhudilərin və digər din ardıcıllarının həmişə harmoniya və firavanlıq şəraitində yaşadıqları bir nümunə kimi çıxış edir. Məkutubda bildirildiyi kimi, Azərbaycanda mədəniyyət ocaqları ilə yanaşı, məscidlər, kilsələr və sinaqoqlar yan-yana fəaliyyət göstərir. Dövlətimiz bütün dini icmalar üçün bərabər şərait yaradır, onların dini qurumlarını qayğı və himayə ilə dəstəkləyir, onlara mütəmadi olaraq maddi və mənəvi yardım göstərir, ölkənin ictimai həyatında fəal iştirakına təminat verir. “Müxtəlifliyin zəngin irsini qoruyub saxlayan, dini azadlıqları dəstəkləyən, qlobal dinlərarası dialoqda fəal iştirak edən Azərbaycan qlobal sülhə mühüm töhfə verir və nümunə kimi çıxış edir”, - deyə dini konfessiyaların təmsilçiləri vurğulayıblar.

Yəhudi icması Azərbaycandakı dini harmoniyaya gözəl nümunədir. Bu icma respublikamızda əsrlər boyu təqib və ya ayrı-seçkilikdən azad bir mühitdə inkişaf edib. Quba rayonundakı tarixi Qırmızı Qəsəbə müsəlman dünyasındakı ən qədim və ən böyük yəhudi icmalarından birinin məskənidir. Bu məqama diqqət çəkən dini konfessiyaların nümayəndələri vurğulayıblar: “Burada fəaliyyət göstərən sinaqoqlar, məktəblər və mədəniyyət mərkəzləri ilə bu məkan Azərbaycanın dini azadlıqlara sarsılmaz sadiqliyinin sübutudur. Bununla yanaşı, Azərbaycan hökuməti xristian və yəhudi dini qurumlarına böyük dəstək verir, onların Azərbaycanın vətəndaş və ictimai həyatında fəal iştirakını təmin edir”.



Hazırda dünyada multikulturalizmlə bağlı vəziyyət heç də ürəkaçan deyil. Bir sıra hallarda hətta liderlər səviyyəsində multikulturalizmin özünü doğrultmadığı bildirilir. Paralel şəkildə, ekstremizmə, irqçiliyə, ksenofobiyaya çağırışlar eşidirik. Eyni zamanda, ayrı-ayrı ölkələrdə ənənəvi dəyərlərin məqsədli şəkildə arxa plana keçirldiyini müşahidə edirik. Bütün bunlar çox təhlükəli tendensiyalardır. Belə çağırışlar və proseslər bəşəriyyəti iflasa aparır. Sivilizasiyaların ümumi nailiyyətləri puç olmaq təhlükəsi ilə üz-üzədir.

### Beynəlxalq birliyin böyük inamı

Bu kimi reallıqlar fonunda D.Trampın ənənəvi dəyərlərin qorunmasının zəruriliyi ilə bağlı çağırışlar etməsi bir ümid işığı kimi görünür. Ağ Evin yeni sahibinin ailə dəyərlərinə necə böyük önəm verdiyi hər kəsə bəllidir. O bəyan edir ki, Amerika rəsmi olaraq iki cinsin - kişi və qadın siyasətini həyata keçirəcək. D.Tramp Arizonada keçirilən “Turning Point” konfransında birmənalı şəkildə bildirib ki, yeni administrasiya demokratlar dövründə geniş yayılmış transgender dəliliyinə və digər hadisələrə son qoymaq niyyətindədir. O, anti-xristian əhval-ruhiyyəsi ilə mübarizə üçün işçi qrupun yaradılması haqqında sərəncam imzalayıb. Məktubda D.Trampa xitabən vurğulanır ki, Sizin Ağ Evin İnam Ofisini yaratmaq və keşiş Paula Uayt-Keyni baş məsləhətçi vəzifəsinə təyin etmək qərarınız imanı idarəçilik və ictimai həyata inteqrasiya etmək üçün güclü öhdəliyi əks etdirir. Onun dini etiqad azadlığı, humanitar hüquqlar və mənəvi dəyərlərin müdafiəsində liderliyi Azərbaycanda üstün tutduğumuz prinsiplərə uyğundur. “Biz qarşılıqlı anlaşma və ortaq dəyərləri təşviq etmək üçün Birləşmiş Ştatlardakı liderlər və təşkilatlarla əlaqə qurmağı səbirsizliklə gözləyirik. Ümidvarıq ki, Sizin rəhbərliyiniz altında bütün dünyada dinə əsaslanan icmalar möhkəmlənməkdə, dini azadlıqlar qorunub saxlanmaqda davam edəcək”, - deyə dini konfessiyaların nümayəndələri bildiriblər.

*Mübariz ABDULLAYEV*

# TÜRKPA-nın Xarici Əlaqələr komissiyaları İstanbulda toplaşdı




İstanbulda Türk Dövlətləri Parlament Assambleyasının (TÜRKPA) Xarici Əlaqələr komissiyalarının toplantısı keçirilib.

Türkiyə Böyük Millət Məclisinin ev sahibliyi ilə təşkil olunan tədbirdə Azərbaycan Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov tərəfindən təmsil olunub.

Türkiyə Parlamentinin Xarici Əlaqələr Komitəsinin sədri Fuat Oktayın sədrliyi ilə keçirilən açılış mərasimində Türkiyə və Azərbaycanla yanaşı, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkmənistan və Şimali Kipr Türk Cümhuriyyətinin Xarici Əlaqələr komitələrinin sədrləri və nümayəndələri, eləcə də digər türk təşkilatlarının rəhbər şəxsləri və əməkdaşları iştirak ediblər.

Tədbirdə çıxış edən Fuat Oktay Türk dünyasının 175 milyonluq gənc və dinamik əhaliyə sahib olduğunu deyib.

Bildirilib ki, türkdilli ölkələrin qlobal səviyyədə ticarət həcmi 1,3 trilyon dollar olduğu halda, qarşılıqlı ticarət rəqəmi 42 milyard ABŞ dolları təşkil edir.

Açılış mərasimində çıxış edən Səməd Seyidov belə yüksəksəviyyəli görüşlərin ortaq maraqlarımızın qorunması, beynəlxalq arenada daha güclü təmsilçilik və əməkdaşlığımızın dərinləşdirilməsi baxımından xüsusi əhəmiyyət kəsb etdiyini vurğulayaraq bu vacib təşəbbüsün ideya müəllifinin Azərbaycan Prezidenti İlham Əliyev olduğunu, dövlətimizin başçısının Türk dünyasının həmrəyliyinin gücləndirilməsi və əməkdaşlığımızın yeni səviyyəyə qaldırılması istiqamətində strateji addımlar ataraq, bu formatın yaranmasına xüsusi önəm verdiyini deyib.

Türkdilli təşkilatların yaradılmasını ölkə liderlərinin uzaqgörən siyasətinin nəticəsi kimi dəyərləndirən Səməd Seyidov bu qurumların zirvəsində rolu və əhəmiyyəti baxımından qlobal arenada gündən-günə təsirini artıran Türk Dövlətləri Təşkilatının dayandığını bildirib: “TDT təkcə siyasi və iqtisadi əməkdaşlıq platforması deyil, eyni zamanda, üzv dövlətlərin təhlükəsizliyi, müdafiə qabiliyyəti və beynəlxalq mövqeyinin gücləndirilməsi baxımından mühüm mexanizm rolunu oynayır. İstər parlamentlərarası əlaqələr, enerji təhlükəsizliyi, istər nəqliyyat-kommunikasiya layihələri, istərsə də müdafiə və təhlükəsizlik sahəsində əməkdaşlıq çərçivəsində birgə addımlar atmaq bütün üzv ölkələr üçün mühüm üstünlüklər qazandırır”.

Səməd Seyidov, həmçinin deyib ki, Azərbaycanın qlobal enerji və nəqliyyat marşrutlarında artan strateji rolu beynəlxalq siyasi münasibətlərə və geosiyasi güc balansına da təsir göstərir: “Bu kontekstdə Zəngəzur dəhlizinin açılması mühüm əhəmiyyət kəsb edir. Bu layihə Azərbaycan, Türkiyə, Ermənistan və digər ölkələr arasında iqtisadi inteqrasiyanı sürətləndirər, eyni zamanda, regionda münasibətlərin inkişafına töhfə verə bilər. Otuz il ərzində Ermənistanın Azərbaycan torpaqlarını işğal altında saxlaması regionda sabitliyə ciddi maneələr yaratdı. İndi isə sülh şəraitində birgə yaşayış üçün real addımlar atmağın zamanıdır”.

Bildirilib ki, hazırda dünya ölkələrinin prioritet məsələsinə çevrilən iqlim dəyişikliyi, su və torpaq ehtiyatlarının azalması, sürətli urbanizasiya kimi qlobal problemlər fonunda Azərbaycan da bu çağırışlara biganə qalmır. Bütün türk dövlətləri, o cümlədən Azərbaycan yeni texnologiyaların tətbiqinə və inkişafın təmin olunmasına töhfə verməyə çalışır: “Bu kontekstdə, Azərbaycan 2024-cü ildə BMT-nin COP29 konfransına ev sahibliyi etdi. Belə bir mötəbər beynəlxalq tədbirin ölkəmizdə keçirilməsi Azərbaycanın ekoloji problemlərə qlobal səviyyədə verdiyi önəmi, güclü siyasi iradəsini və qətiyyətini nümayiş etdirməklə yanaşı, Türk dünyasının beynəlxalq arenada nüfuzunun daha da artmasına mühüm töhfə verdi”.

Qeyd edilib ki, təkcə 2024-cü il ərzində Azərbaycan Ordusunun hərbi qulluqçuları Azərbaycan-Türkiyə hərbi əməkdaşlığı çərçivəsində ikitərəfli və çoxtərəfli 20 təlimdə iştirak ediblər. Ötən il Azərbaycan və Özbəkistan, Azərbaycan və Qazaxıstan hərbçilərinin birgə təlimləri, həmçinin Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Özbəkistandan olan hərbçilərin iştirakı ilə beynəlxalq hərbi təlimlər keçirilib. 2024-cü ildə Azərbaycan Müdafiə Nazirliyi ilə Qırğızıstan Müdafiə Nazirliyi arasında 2025-ci il üçün ikitərəfli hərbi əməkdaşlıq planı imzalanıb.

Dünyada gedən proseslərə toxunan Səməd Seyidov deyib ki, ABŞ-ın yeni seçilmiş Prezidenti Donald Trampın hakimiyyətə gəlişi qlobal proseslərə ciddi təsir edəcək və Türk dövlətlərinin ABŞ ilə münasibətlərinin sağlam əsaslar üzərində qurulması üçün yeni imkanlar yaradacaq. Avropada idarəetmə böhranı da bizi ciddi narahat edir: “Demokratık dəyərlərdən istifadə edib xalqlara təsir göstərmək istəyən bəzi Avropa ölkələri başa düşməlidirlər ki, onların müstəmləkə siyasəti aparmaq dövrü bitib. Bu gün Avropa müharibə içindədir. Onun xilas olmasının bir yolu var. Onlar ikili standartlardan əl çəkməli, türkofobiya və islamofobiyaya qarşı mübarizə aparmalıdırlar. Onlar anlamalıdırlar ki, terrorla mübarizədə məhz türk dövlətləri açıq, dürüst siyasət göstərir. Suriya buna bır nümunədir”.

Səməd Seyidov Türkiyənin Kahramanmaraş bölgəsində baş vermiş zəlzələlər və ötən ilin son günləri “Azərbaycan Hava Yolları” (AZAL) şirkətinə məxsus təyyarənin qəzaya uğraması zamanı türkdilli ölkələrin həmrəylik göstərdiyini vurğulayıb.

Toplantının yekununda tərəflər gələcək fəaliyyətlərə dair ortaq bəyanat imzalayıblar.

Bəyanatda görüşlərin TÜRKPA-nın dəstəyi ilə mütəmadi olaraq, ən az ildə bir dəfə “Türk Dövlətləri Parlamentlərinin Xarici İşlər Komissiyaları Toplantısı” adı altında keçirilməsi, növbəti toplantının keçiriləcəyi məkan və zamanın hər görüşdə müəyyən edilməsi, toplantılarda TÜRKPA-ya üzv, müşahidəçi və qonaq ölkə parlamentlərinin Xarici İşlər Komissiyalarının iştirakı, eləcə də Türk Dövlətləri Təşkilatı (TDT) və TÜRKPA Baş katiblərinin dəvət edilməsi, hər görüşdən sonra ortaq bəyanatın yayılması nəzərdə tutulur.

# Üç qardaş ölkənin yeni enerji formatı

## Martın 1-dən Türkmənistan qazı Azərbaycandan keçərək Türkiyəyə tədarük olunacaq

Türkiyə gələn aydan etibarən Türkmənistan qazının tədarükünə başlayacaq. Qardaş ölkənin energetika və təbii sərvətlər naziri Alparslan Bayraktar bildirib ki, Türkiyə ilə Türkmənistan arasında enerji əməkdaşlığında tarixi sazişin icrası martın 1-dən başlayacaq. Belə ki, BOTAŞ və “Türkmənqaz” arasında əldə edilmiş razılaşmaya əsasən, Türkmənistan qazı Azərbaycan üzərindən Türkiyəyə çatdırılacaq.

Qeyd edək ki, Türkmənistan və Türkiyə qaz əməkdaşlığına dair razılaşmanı ötən il imzalayıb. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla Türkmənistanın Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədovun iştirakı ilə 2024-cü ilin mart ayında Antalyada imzalanmış qaz sahəsində əməkdaşlığın inkişafına dair Anlaşma Memorandumu enerji mübadiləsinin hüquqi-iqtisadi əsasını təşkil edir.

Razılaşmaya əsasən, Türkmənistan qazı Bakı-Tbilisi-Ərzurum vasitəsilə qardaş ölkəyə nəql olunacaq. Bununla bağlı 2022-ci il dekabrın 14-də Türkmənbaşı şəhərində Azərbaycan, Türkiyə və Türkmənistanın Dövlət Başçılarının Birinci Üçtərəfli Zirvə Görüşü çərçivəsində tranzit sazişi imzalanıb. Türkmənistanın “Türkmənqaz” Dövlət Konserni, Azərbaycanın Energetika Nazirliyi və Türkiyə Respublikasının Energetika və Təbii Sərvətlər Nazirliyi tərəfindən imzalanmış “Energetika sahəsində əməkdaşlığın inkişaf etdirilməsi ilə bağlı qarşılıqlı anlaşmaya dair Qurumlararası Memorandum” baza sənədi olmaqla sözügedən qaz layihəsinin gerçəkləməsinə yol açır.

### Yeni qaz nəqlinin hansı üstünlükləri var?

Türkiyənin enerji və təbii sərvətlər naziri Alparslan Bayraktar bildirib ki, ilkin mərhələdə 2 milyard kubmetr qazın Türkiyəyə çatdırılması və gələcəkdə bu həcmin daha da artırılacağı nəzərdə tutulub. Qazın həcmi artıqca türkmən qazı Türkiyənin daxili tələbatı ilə yanaşı, Avropa regionlarına nəql ediləcək. Ankara öz geosiyasi mövqeyindən istifadə edərək Türkmənistan qazını Avropaya çatdırmaq öhdəliyini üzərinə götürmək istəyir. Rusiya-Ukrayna müharibəsi nəticəsində Avropanın enerji problemi ilə üzləşdiyi bir zamanda alternativ yollar axtarışına başlanıb. Alternativ yollardan biri hesab edilən Türkmənistan qazının Avropaya çatdırılması da bu ssenarilərdən biridir. A. Bayraktar da bunu istisna etmir. Onun fikrincə, Bakı və Ankaranın bu layihələri təkcə öz təchizat zəncirlərinin təhlükəsizliyini təmin etməyəcək, həm də Avropanın enerji təchizatının təhlükəsizliyinə mühüm töhfə verəcək. “Təbii qaz sahəsində əməkdaşlıqda yeni mərhələ başlayır. Bu, 2030-cu ilə qədər Azərbaycan qazının, eləcə də Xəzər dənizinin qaz ehtiyatlarının Türkiyəyə əlavə həcmdə nəqlini təmin edəcək. Bundan əlavə, qazın bir hissəsi Türkiyədən keçməklə Avropaya daşınacaq”.




### Türkmənistan da Cənub Qaz Dəhlizi ailəsinə qoşulur

Türkmən qazının Azərbaycan üzərindən Türkiyəyə nəqli geoiqtisadi əhəmiyyət daşımaqla Azərbaycanın tranzit ölkə kimi həm mövqeyini artıracaq, həm də traniz gəlirləri əldə etməsinə səbəb olacaq. Bu layihə Bakı və Ankaranın iqtisadi inteqrasiyasına daha yeni şaxə əlavə etməklə iki ölkənin iqtisadi zəncirlərinin birləşməsində əlavə təhlükəsizlik amilinə çevriləcək. Digər əsas məqam Türkmənistan-Azərbaycan-Türkiyə enerji ittifaqının formalaşmasıdır. Hər 3 qardaş ölkə bu starteji qərarın gerçəyə çevrilməsi ilə Türk ailəsinin iqtisadi inteqrasiya proqramının əhatəsini daha da genişləndirmiş olacaq.

Üçüncüsü, layihə geosiyasi əhəmiyyət daşımaqla Avropanın enerji təchizatının təhlükəsizliyinə mühüm töhfə verərəck. Yəni Türkiyə və Azərbaycan faktiki olaraq Türkmənistanı da Cənub Qaz Dəhlizi ailəsinə qoşmağa doğru inadlı addımlar atır.

Avropa İttifaqı ölkələri Rusiya qazının həcmlərinin azaldığını nəzərə alaraq bir neçə enerji mənbəyinə ümid edir ki, onlardan ən rentabelli və perspektivlisi Xəzər regionudur. Xəzər regionu Asiya və Avropanın əsas qaz istehlak bazarlarına daha yaxındır və bu baxımdan Aİ Xəzər dənizinin zəngin qaz ehtiyatlarının tədarükünü daha da tezləşdirməyə çalışır. Bu baxımdan Xəzər regionunun qaz tədarükçüləri olan Türkmənistan, Qazaxıstan, Azərbaycana ehtiyac daha da artır. Xəzərə zəngin yanacaq mənbəyi kimi xüsusi önəm verən Avropa İttifaqı məhz Azərbaycanın liderliyi sayəsində bölgənin digər ölkələrini - Türkmənistan, Özbəkistan və Qazaxıstanı da Cənub Qaz Dəhlizinə qoşmağa çalışır.

Beləliklə, Azərbaycan və Türkiyə arasında təbii qaz sahəsində imzalanmış saziş dolayısı ilə həm də Avropa İttifaqının siyasi və iqtisadi maraqları ilə üst-üstə düşür və Cənub Qaz kəmərinin genişlənməsinə, perspektivdə Trans-Xəzər qaz dəhlizinin yaranmasına xidmət edir. Xəzər bölgəsinin böyükhəcmli yanacaq ehtiyatlarının Qərbə daşınmasında isə əsas tranzit və infrastruktur təminatı Azərbaycanın üzərinə düşəcək. Respublikamız təkcə öz enerji ehtiyatlarını deyil, Xəzəryanı ölkələrin də resurslarını Avropaya nəql edərək Mərkəzi Asiya ilə Avropa arasında iqtisadi bağlantını təmin edəcək.

*ELBRUS CƏFƏRLİ*

# Yeni hədəflər...

## Üçüncü Xəzər İqtisadi Forumunda ticarət, nəqliyyat və digər sahələrdə əlaqələrin artırılması qərara alınıb

**Fevralın 17-18-də İranın paytaxtı Tehranda Xəzəryanı dövlətlərin iştirakı ilə Üçüncü Xəzər İqtisadi Forumu keçirilib. Forumda Azərbaycan, İran, Rusiya, Türkmənistan və Qazaxıstanın hökumət başçıları, nəqliyyat və ticarət qurumlarının rəhbərləri, iş adamları və digər şirkətlərin nümayəndələri iştirak ediblər. Forumda nəqliyyat, tranzit, ticarət, bank sahələrində əməkdaşlıq əlaqələrinin perspektivləri müzakirə olunub.**

**Qeyd edək ki, Xəzəryanı ölkələrin qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrini daha da genişləndirməsində bu forum əhəmiyyətli platforma kimi özünü doğrultmaqdadır. İlk dəfə 2019-cu ilin avqustunda Türkmənistanın Türkmənbaşı şəhərində keçirilən Xəzər İqtisadi Forumu qısa müddətdə mühüm iqtisadi-ticari, nəqliyyat məsələlərinin reallaşmasında rol oynamaqla, çoxtərəfli iqtisadi dialoq üçün faydalı platformaya çevrilib. Bu baxımdan tərəflər növbəlilik prinsipi ilə davamlı forumların keçirilməsini qərara alıb. COVID-19 pandemiyası səbəbindən forumlar təxirə salınsa da, 2022-ci ildə işini yenidən bərpa edib. Həmin ilin oktyabrında Moskvada keçirilən İkinci Xəzər İqtisadi Forumunda nəqliyyat-tranzit məsələləri üzrə əhəmiyyət kəsb edən razılaşmalar əldə olunub.**



### “Şimal-Cənub” nəqliyyat dəhlizinin imkanları artırılır

Xəzər regionu zəngin təbii ehtiyatlara və iqtisadi potensiala malikdir ki, bu da ölkələr arasında qarşılıqlı əməkdaşlıq əlaqələrinin daha da artırılması üçün münbit şərait yaradır. 300 milyondan çox əhalisi və 700 milyard dollar ticarət dövriyyəsinə malik olan Xəzəryanı dövlətlərin iqtisadi əməkdaşlığına Azərbaycan da böyük töhfələr verir, tərəfdaşlarla qarşılıqlı ticarət dövriyyələrini artırır.

Forumda çıxış edən Azərbaycanın baş naziri Əli Əsədovun da vurğuladığı kimi ölkəmiz davamlı olaraq Xəzəryanı dövlətlər arasında iqtisadi-ticari əlaqələrə xüsusi önəm verir. Bunun nəticəsidir ki, 2024-cü ildə Azərbaycanın Xəzəryanı ölkələrlə ticarət dövriyyəsinin ümumi dəyəri 2023-cü illə müqayisədə 6 faizdən çox artıb.

Xəzər regionu ölkələri arasında əlaqələrin inkişafına töhfə verən mühüm vasitələrdən biri “Şimal-Cənub” nəqliyyat dəhlizidir. Hazırda dəhlizin daşıyıcılıq gücünün artırılması yönündə əlavə modernləşdirmə işləri aparılmaqdadır. Yeni modernizasiya planına əsasən, “Ulyanovsk- Bakı - Astara” marşrutu “Orta Volqa - Xəzər dənizi - Fars körfəzi” logistika zəncirinə qoşulacaq, eyni zamanda, Azərbaycan və İranın dəmir yolları birləşdiriləcək. Həmçinin “Şimal-Cənub” marşrutunun “Trans-Xəzər” bölməsinin də bu inteqrasiya blokuna cəlb edilməsi istiqamətində də fəal iş aparılmaqdadır.

Tərəflər, həmçinin Orta-Mərkəzi Asiya-Xəzər tranziti üzrə dəhlizin daşınma rejiminin asanlaşdırılması üçün tariflərə yenidən baxılmasını, güzəştli ticarət rejiminin yaradılmasını vacib sayır. Eyni zamanda, sərhəd-keçid məntəqələrində nəqliyyat vasitələrinin sərhəddən keçməsi prosesi, gömrük yoxlaması və sənədlərin rəsmiləşdirilməsi qaydasının asanlaşdırılması, daha açıq və hesabatlı tranzit formatının təşkili məqsədilə rəqəmsal platformanın qurulması təklif olunub. Ümumilikdə, məqsəd bu nəqliyyat dəhlizinin gücünün daha da artırılması üçün Xəzər klasteri zonasında bütün tərəflərin dəniz-liman infrastrukturu və konteyner qovşaqlarının, dəmir yolu şəbəkələrinin əlaqələndirilməsi, vahid yükdaşıma sisteminin yaradılmasıdır.

### Vahid ekoloji strategiya hazırlana bilər

Xəzəryanı ölkələrin ümdə prioritetlərindən biri də iqlim təhlükəsizliyi, xüsusilə də Xəzərin ekoloji mühitinin qorunmasıdır. Qazaxıstanın ekologiya və təbii sərvətlər nazirinin müavini J.Ş.Əliyev Xəzər regionu ölkələri arasında ətraf mühitin mühafizəsi sahəsində güclü və səmərəli əməkdaşlıq qurulduğunu bildirərək müasir iqlim çağırışları fonunda vahid ekoloji strategiyanın hazırlanmasını təklif edib. İranın birinci vitse-prezidenti Məhəmməd Rza Arefi isə vurğulayıb ki, Xəzər dənizi dünyada ən zəngin kürü və nərə ehtiyatlarına malik olduğundan dənizin ekologiyasının qorunmasında ciddi addımlar atılmalıdır. Hazırda dünya bazarına çıxarılan kürü və nərə balığının 80 faizi məhz Xəzər dənizindən tədarük edilir və bu ehtiyatlar təkcə Xəzər regionu dövlətləri üçün deyil, Asiya və Avropa dövlətləri üçün də mühüm əhəmiyyət daşıyır. Bu baxımdan dənizətrafı ölkələr bu sərvətlərin qorunması və səmərəli istifadəsi sayəsində qlobal bazarlarda böyük pay əldə etmək iqtidarındadır.

Üçüncü Xəzər İqtisadi Forumu tərəfdaş ölkələr arasında gələcək əməkdaşlığın yeni istiqamətlərini müəyyən etmək, xüsusilə də, ticari-nəqliyyat, enerji sahəsində nəzərdə tutulan hədəfləri qısa müddət ərzində yekunlaşdırmaqla bu coğrafiyada qarşılıqlı mal və əmtəə dövriyyələrinin həcmlərini artırmaq baxımından yeni imkanlar açacaq.

*E.CƏFƏRLİ*

# “S&P” xəsislik etsə də...

## Nüfuzlu təşkilatlar 2025-ci ildə ölkəmizdə daha yüksək iqtisadi artım proqnozlaşdırır

**Dünyanın iqtisadi institutlarından biri olan “S&P Global Ratings”**

(S&P) beynəlxalq reytinq agentliyi yeni qlobal hesabatını açıqlayıb. Hesabatda qeyd olunub ki, 2024-cü ildə Qafqaz və Mərkəzi Asiya regionunda ümumi daxili məhsul (ÜDM) istehsalı gözləntiləri üstələyib. 2025-ci ildə həmin regionda ÜDM artımı ilə bağlı proqnozlar yüksək fərz edilsə də, nisbi artımın 2024-cü ilin səviyyəsindən aşağı olacağı gözlənilir. Təşkilat hesab edir ki, 2025-ci ildə Azərbaycanda ÜDM-in artım tempi 2 faiz səviyyəsində olacaq, 2026-cı il üçün isə artım dinamikası üzrə gözləntilər 1,5 faizdən 2 faizə yüksələcək.

### 2025-ci ildə artım tempinin 3,5-4 faiz olacağı fərz edilir

“S&P Global Ratings”in ölkəmizlə bağlı iqtisadi proqnozları xəsislik gözləntiləri üzərində tərtib olunsa da, digər iqtisadi təşkilatların hesabatlarında ÜDM-lə bağlı daha yüksək rəqəmlərə rast gəlinir. Belə ki, “Moody`s” beynəlxalq reytinq agentliyinin proqnozlarına görə, 2025-ci ildə Azərbaycanın real ÜDM artımı 4 faiz təşkil edəcək. “Fitch Ratings”in proqnozlarında isə bu rəqəmin 3,4 faiz, Niderlandın “ING” təşkilatının hesabatında isə 2,8-3 faiz nisbətində olacağı gözlənilir. Asiya İnkişaf Bankının ötən ilin sonlarında açıqladığı “Asian Development Outlook” icmalında Azərbaycanda ÜDM-in cari il üzrə illik artım proqnozu 4-4,2 faiz intervalında qərarlaşdırılıb.

Beynəlxalq Valyuta Fondunun “World Economic Outlook” hesabatında qeyd edilir ki, Azərbaycanda 2025-ci ildə iqtisadi artımın 4 faiz təşkil edəcəyi ehtimal olunur. Fondun, həmçinin ötən il dərc etdiyi “Regional iqtisadiyyatın inkişaf perspektivləri” adlı yeni hesabatında 2025-2028-ci illərdə Azərbaycan iqtisadiyyatının orta illik artım tempinin 3,5-4 faiz olacağı fərz edilir.

Dünya Bankı (DB) qlobal iqtisadiyyatla bağlı yenilənmiş proqnozxülasəsində vurğulanır ki, böyük həcmdə dövlət investisiyaları sayəsində hazırda əlavə dəyərin həcmi davamlı şəkildə böyüyür. Bu dinamikanın 2025-ci ildə ÜDM-in 3,9 faizi ötməsində əsaslı rol oyanayacağı vurğulanır.




Azərbaycan hökumətinin makroiqtisadi proqnozları da yuxarıda adları çəkilən təşkilatların əksəriyyətinin gözləntilərinə uyğun-

### Hökumətin proqnozları da ümidvericidir

dur. Belə ki, İqtisadiyyat Nazirliyinin 2025-ci il üzrə artım proqnozu 3,5 faiz, Mərkəzi Bankın ehtimalları isə 3,3 faiz nisbətində müəyyənləşib.

Hazırda Azərbaycanda ÜDM-in 4,1 faizlik artım tempi dünya üzrə ümumi iqtisadi artım göstəricisindən (3,2-3,5 faiz) yüksəkdir. Bu faktor da ölkəmizdə iqtisadi inkişafı təmin edən mənbələrin dayanıqlılığı və növbəti dövrlər üzrə əlavə potensialların səfərbər olunmasına imkan verdiyini təsdiqləyir. Bu tempin ilin sonunda və növbəti ildə də davam edəcəyi, qeyri-neft ÜDM-nin orta artımının 7-8 faiz təşkil edəcəyi gözlənilir.

Azərbaycan hökumətinin açıqladığı Ortamüddətli Xərclər Çərçivəsi sənədinə əsasən, 2025-ci ilin sonuna ÜDM-in həcmi 129,2 milyard manat, o cümlədən qeyri-neft ÜDM-nin həcmi 92,2 milyard manat təşkil edəcək. Milli məhsulda neft sektorunun payı 28,6 faiz, qeyri-neftqaz ÜDM-nin payı isə 71,4 faiz ehtimal edilir. 2026-cı ildə ÜDM-in həcmi 133,8 milyard manata, qeyrineft ÜDM-nin həcmi isə 100 milyard manata çatacaq. 2027-ci ildə ÜDM 142,9 milyard manat, o cümlədən qeyri-neft sektoru üzrə əlavə dəyərin həcmi 108,3 milyard manata bərabər olacaq. 2028-ci ildə isə ÜDM-in cəmi dəyəri 150,8 milyard manata çatacaq ki, onun 117,2 milyard manatının və ya 77,7 faizinin qeyri-neft ÜDM-i olacağı fərz edilir. Beləliklə, ortamüddətli dövrdə ÜDM-in real artım tempinin orta illik 3,35 faiz, qeyri-neft-qaz ÜDM-in artım tempi isə 5 faiz olacağı proqnozlaşdırılır.

Ölkədə iqtisadi inkişafın sosial sahələrə də təsirləri əhəmiyyətli dərəcədə nüfuz edəcəyi gözlənilir. Belə ki, ortamüddətli dövrdə əhalinin gəlirlərinin artaraq 2028-ci ildə 112,5 milyard manata, xərclərinin isə 107,9 milyard manata qədər yüksəlməsi gözlənilir. Orta aylıq əməkhaqqını nominal həcmi 2025-ci ildə 1080 manat, 2026-cı ildə 1156 manat, 2027-ci ildə 1237 manat, 2028-ci ildə isə 1327 manat təşkil edəcək.

*E.CƏFƏRLİ*

# Durbinlər bu dəfə Qazax istiqamətinə yönəldi...

## “Missiya” nə etməyə çalışır?

**Ermənistanın Azərbaycanla sərhəd ərazilərində fəaliyyət göstərən Aİ-nin “müşahidə missiyası” avantürist addımlarını davam etdirir - onlar bu dəfə Azərbaycanın Qazax və Qubadlı rayonu istiqamətinə gəliblər. Görüntülərdən aydın olur ki, Ermənistanla Azərbaycan arasındakı şərti sərhədə yerləşdirilən Aİ “missiyası”nın üzvləri durbinlə Azərbaycan ərazilərini müşahidə ediblər.**

**Qeyd edək ki, Avropa İttifaqının “müşahidə missiyası” 2023-cü ilin 20 fevralında 138 nəfərlik heyətlə uzunmüddətli fəaliyyətə başlayıb, daha sonra həmin ilin dekabrında missiya üzvlərinin sayı 209 nəfərə çatdırılıb. Kanada Aİ üzvü olmadığı halda, bu ölkənin nümayəndələri də müşahidə missiyasına qoşulub. Bu ilin yanvarın 29-da Avropa İttifaqının səfirləri Brüsseldə bir araya toplaşaraq Ermənistandakı müşahidə missiyasının müddətinin daha iki il uzadılması barədə qərar qəbul ediblər - belə ki, bu missiya 2027-ci il fevralın 19-dək Ermənistanın sərhədyanı rayonlarında qalacaq. Azərbaycan tərəfi “missiya”nın fəaliyyətini diqqətlə izləyir - rəsmi Bakı missiyanın onunla razılaşdırmadan fəaliyyət göstərdiyini bəyan edib.**

**“Missiya”nın bu dəfə Qazax istiqamətinə gəlməsi və burada müşahidələr aparması müəyyən suallar doğurur, görəsən, nə etməyə çalışırlar və nə məqsəd güdürlər? Xüsusi olaraq vurğulayaq ki, keçən il Qazax istiqamətində Azərbaycan-Ermənistan sərhədi tam şəkildə delimitasiya olunub. 2024-cü ilin aprelin 19-da Azərbaycan-Ermənistan sərhədinin delimitasiyası üzrə komissiyanın birgə iclasında əldə olunan razılaşma əsasında Qazax rayonunun 30 il işğal altında olan Bağanis Ayrım, Aşağı Əskipara, Xeyrimli və Qızılhacılı kəndləri Azərbaycana qaytarıldı. Həmin gündən etibarən həmin kəndlərin əraziləri Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti tərəfindən nəzarətə götürülüb.**

### Casusluqla məşğuldur

Məsələ ilə bağlı politoloq Tural İsmayilov “Yeni Azərbaycan” qəzetinə şərhində qeyd edib ki, bu missiya bölgədə casusluq fəaliyyəti ilə məşğuldur: “Yalandan özlərinə mülki ad versələr də, hər kəsə aydındır ki, bu missiyanın əsas məqsədi Azərbaycanın ərazilərində təxribatlar törətmək və ölkəmizə qarşı müxtəlif məkrli planlar həyata keçirməkdir. Azərbaycan rəhbərliyi bu missiyanın bütün addımlarından xəbərdardır və istənilən zaman zəruri tədbir görmək iqtidarındadır”.



### Ermənistanda at oynadırlar

“Bu gün aydın şəkildə görürük ki, bəzi Qərb ölkələri Aİ-nin müşahidə missiyası adı altında Ermənistanda at oynadırlar. Bu missiyanın fəaliyyəti Azərbaycanla yanaşı, Rusiya və İrana qarşı da yönəlib” - deyə bildirən T.İsmayilov vurğulayıb ki, Qərbdəki müəyyən dairələr regionda sülhün bərqərar olunmasında maraqlı deyil: “Azərbaycan öz gücü və qüdrəti hesabına torpaqlarını işğaldan azad edib. Təəssüf ki, Azərbaycan ilə Ermənistan arasında müxtəlif mövzularda əməkdaşlıq imkanları İrəvanın qeyri-peşəkar və irrasional siyasəti üzündən tükənmək üzrədir. Bu vəziyyətdən istifadə edən həmin dairələr Ermənistanı sülh prosesindən yayındırmağa çalışırlar”.

### Missiyanın addımları qəbuledilməzdir

“Regionda sülhü təşviq etmək və sülhün bərqərar olunması üçün adekvat addımlar atmaq əvəzinə missiya vəziyyətin gərginləşməsinə çalışır. Azərbaycan ilə Ermənistan arasında sərhədin delimitasiya olunan hissəsində patrul xidmətləri həyata keçirməsi normal qəbuledilələcək bir tendesiya deyil. Qərbdəki müəyyən dairələr Ermənistandan Azərbaycana və Türkiyəyə qarşı, həmçinin regionun digər ölkələrinə qarşı alət kimi istifadə etmək niyyətindədirlər. Onlar, xüsusilə də Fransa bölgədə casusluq fəaliyyəti göstərməklə yanaşı, Ermənistanı məqsədyönlü şəkildə silahlandırır”,- deyə T.İsmayilov bildirib.

*Yunis ABDULLAYEV*

### Aİ "offsayda" düşməsini həzm edə bilmir

# Brüssel ilə Vaşinqton arasındakı çəkişmə böyüyür...

Kristof Hoysgenin təbirincə desək "Avropa kabusu"na çevrilən sonuncu Münhen Təhlükəsizlik Konfransından bir gün sonra Parisdə Fransanın təşəbbüsü ilə Avropa liderlərinin təcili sammiti keçirildi. Qeyd edək ki, məhz Münhendə ABŞ-ın yeni vitse-prezidenti Ceyms Devid Vensin kəskin çıxışından sonra "köhnə qitə"də narahatlıq pik nöqtəyə çatıb. Paralel olaraq ABŞ prezidentinin xüsusi nümayəndəsi Keyt Kelloq isə Ukraynadakı münaqişənin həlli üzrə danışıqlarda Aİ-nin fiziki mənada təmsil olunmayacağını bildirməklə Avropanı tam "offsayd" vəziyyətinə salıb.

## Veymar üçbucağı yığıldı...

Xatırladaq ki, hələ Tramp ilə Putin arasınıda gerçəkləşdirilmiş telefon danışığından sonra genişlənmiş "Veymar üçbucağı" formatında görüş keçirilmişdi - fevralın 12-də Parisdə Fransa, Almaniya, Polşa, İtaliya, İspaniya və Böyük Britaniyanın xarici siyasət idarələrinin rəhbərləri Ukraynanın xarici işlər naziri Andrey Sibiqa və Avropa Komissiyasının nümayəndəsinin iştirakı ilə görüşmüşdülər. Bu isə Paris sammitində fikir ayrılığını yenidən oratya çıxardı - Sloveniya prezidenti Nataşa Pirc-Musar deyib ki, yanaşma hətta Aİ daxilində belə bütün ölkələrə bərabər münasibət göstərilmədiyini ortaya qoyur. Macarıstanın xarici işlər naziri Peter Siyarto Parisdə baş tutan görüşü eskalasiyanı təhrik etməyə davam edənlərin səhv strategiyası adlandırıb və pisləyib.

## Aİ narahatdır - "sülh piroqu" necə bölünəcək?

Vurğulandığı kimi, Avropanın hazırkı gündəliyi xüsusilə Ukrayna-Rusiya danışıqlarında iştirakla bağlıdır. Aİ Şurasının sədri Antonio Kosta bildirib ki, Avropanın gələcək təhlükəsizlik arxitekturasını müəyyən etmək üçün Aİ Ukraynada müharibəyə son qoymaq üçün Rusiya ilə danışıqlarda iştirak etməlidir. Onun fikrincə, əgər ABŞ prezidenti Donald Tramp həqiqətən də avropalıların öz təhlükəsizlikləri üçün daha çox məsuliyyət daşımasını istəyirsə, o zaman, əlbəttə ki, avropalılar yeni təhlükəsizlik arxitekturasının hazırlanmasında əsas oyunçular olmalıdırlar. 27 Avropa ölkəsinin daxil olduğu Aİ Şurasının sədri onu da əlavə edib ki, Rusiya bu gün qlobal təhlükə yaradır. "Söhbət təkcə Ukraynadan getmir. Yeni təhlükəsizlik arxitekturasına dair danışıqlarda nəzərə alınmalıdır ki, Rusiya təkcə Ukrayna üçün təhlükə deyil, qlobal təhlükədir", - Kosta Kreml hakimiyyətinin Aİ və NATO-nun üzvü olan Baltikyanı ölkələrə - Estoniya, Latviya və Litvaya qarşı "aqressiv mövqe" tutduğunu xatırladıb. O, həmçinin qeyd edib ki, Rusiya prezidenti Vladimir Putinin Moldova və Gürcüstanda işğal olunmuş ərazilər formasında dayaqları var.

Əslində, Kostanın narahatlığında sezilən ən mühüm məqam ABŞ-ın onları yarı yolda buraxması ilə bağlıdır - bəlli olduğu kimi, son 3 ildə Avropa məhz ABŞ-ın təhriki ilə Rusiyaya qarşı sanksiyaları qəbul etmiş, hətta enerji böhranı, iqtisadi çətinliklər çəkmişdi. İndiki halda Aİ də "sülh piroqu"ndan pay umur. Paris Sammiti bu mənada ekspertlər tərəfindən həm də "əzələ nümayişi" kimi də qəbul edilir.





## Rusiyanın "pulu" ilə Ukraynaya "dost yardımı"...

Aİ ABŞ-ın onları meydanda tək buraxması ilə barışa bilmir. Daha doğrusu, "qoca qitə" aldandığını etiraf etməyə "utanır". Baydenin "vədlərinə" aldanaraq Rusiya ilə bütün körpüləri yandıran bəzi Aİ dövlətləri daha çətin vəziyyətdədir. Onlar status-kvonu yenidən bərpa etmək üçün Rusiya ilə ayrıca "danışıqlar prosesi" yaratmağa ümid edirlər. "Vabank" sayıla biləcək son addımlar da məhz buna hesablanıb. Belə ki, Avropa İttifaqı Ukraynaya hərbi yardım üçün maliyyə ayırmağa yeni cəhdlər etməyi qərara alıb. Aİ səfirləri təşkilata üzv ölkələrin könüllü töhfələri hesabına maliyyələşəcək yeni fondun yaradılması təşəbbüsünü müzakirə etməyi planlaşdırırlar. Nəzərə alsaq ki, son 3 ildə Aİ-nin Ukraynaya bu və ya digər şəkildə yardımı ABŞ ilə müqayisədə çox cüzidir, yeni maliyyə tranşının ancaq hədə-qorxu xarakteri yaradacağı ilkin mərhələdəcə ifşa olur. Bu maliyyənin Ukraynanın iri çaplı artilleriya döyüş sursatları, hava hücumundan müdafiə sistemləri və uzaqmənzilli raketlər kimi ən aktual müdafiə ehtiyaclarını ödəmək, Ukrayna Silahlı Qüvvələrinin briqadalarının bərpası və Ukrayna hərbi sənayesini dəstəkləmək üçün ayrılması "nəzərdə tutulur" - burada da müəyyən hiylə var. Belə ki, Aİ ölkələrinin "töhfələrinin" Rusiya Federasiyasının dondurulmuş aktivlərindən əldə edilən gəlirlər hesabına formalaşdırılması nəzərdə tutulur. Bu il Rusiyanın dondurulmuş aktivlərindən əldə edilən gəlirin 900 milyon avroya qədər olacağı təxmin edilir. Planda isə nəzərdə tutulan dəstəyin həcmi göstərilmir.

## 30 min əsgər göndərilməsi müzakirə olunur - Almaniya narazıdır...

ABŞ - Rusiya danışıqlarını "pozmaq üçün" Aİ Paris sammitində həm də hərbi təzyiqi nəzərdə tutub - belə ki, Aİ liderləri və London atəşkəs rejiminə nəzarət etmək üçün Ukraynaya 30 minə qədər hərbçi göndərməyi müzakirə ediblər - bu barədə Amerikanın "The Washington Post" qəzeti yazıb. Qəzet dörd mənbəyə istinadən yazıb ki, Avropa ölkələrindən olan 25-30 min hərbçi Ukraynada yerləşdiriləcək bir neçə briqadada birləşə bilər. Qəzet yazır ki, əsgərlər yalnız "rus qoşunları müharibəni bərpa etməyə çalışsalar, güc nümayiş etdirməyə hazır olacaqlar" - göründüyü kimi, Aİ prosesdən kənarda qalmağı həzm edə bilmir.

Maraqlıdır ki, digər aparıcı Aİ ölkələrindən, konkret Fransadan fərqli olaraq Almaniya "sülhməramlı" məsələsinə fərqli baxır. Şoltz sülhməramlıların Ukraynaya göndərilməsi ilə bağlı vaxtından əvvəl müzakirələri tənqid edib. Sammitdən sonra Almaniya kansleri bu mövzuda davam edən müzakirələrdən "hətta bir az da qıcıqlandığını" bildirib: "Burada, hələ baş tutmamış sülh danışıqlarının mümkün nəticələri müzakirə olunur. Bu, səmimi desək, son dərəcə yersizdir. Biz hələ sülhə nail olmamışıq, heç bir məhdudiyyət olmadan aparılan vəhşi müharibənin ortasındayıq".

Beləliklə, ABŞ-Aİ çəkişməsi yeni bir proses üzrə daha da dərinləşməkdədir. Ukrayna məsələsində ABŞ-ın birtərəfli razılıq əldə etməsi isə Qərb koalisiyasında bəlkə də bərpa olunmaz "çat" yaradacaq. Ər-Riyad görüşündə əldə olunacaq hər hansı bir isti razılaşma Brüsselli Vaşinqtonu ilə hətta qarşı-qarşıya da gətirə bilər...

**P.SADAYOĞLU**

# Seçkiyə sayılı günlər qalır...

### Almaniyada yeni kabineti kim formalaşdıracaq?

Almaniyada yeni parlament seçkilərinə sayılı günlər qaldı. Xatırladaq ki, Almaniyada erkən parlament seçkiləri 2025-ci il fevralın 23-də keçiriləcək. Bu seçki 2025-ci ilin payızında baş tutmalı idi - lakin ötən ilin sonlarında hakim koalisiya daxilində yaranan ziddiyyətlər və böhran nəticə etibarı ilə komandanın dağılması ilə nəticələndi. FDP lideri Kristian Lindnerin 2024-cü il noyabrın 6-da maliyyə naziri vəzifəsindən istefa verməsi nəticəsində kansler Olaf Şoltz Bundestaqda etimad səsverməsinin keçirilməsini elan etdi və 2025-ci ilin fevralına yeni seçkilər təyin olundu.

## Namizədlər kimdir?

Qeyd edək ki, keçiriləcək parlament seçkilərində beş partiya federal kansler vəzifəsinə namizəd irəli sürəcək - göründüyü kimi, bu dəfə namizədlərin sayı daha çoxdur. Təbii ki, şanslar da bir az fərqli dəyərləndirilir. Məsələn, hazırkı kansler Olaf Şoltz sosial demokratların (SPD) namizədidir. O, 1958-ci ildə Osnabrükdə anadan olub, Hamburqda böyüyüb və hüquqşünas kimi təhsil alıb. 1975-ci ildən SPD-nin üzvüdür. Şoltz Hamburqun meri, Bundestaqın üzvü və kansler Angela Merkelin dövründə maliyyə naziri olub. Namizəd daha çox partiyasının mühafizəkar qanadını təmsil edir. Sorğulara görə, onun yenidən kansler olmaq şansı azdır.

Xristian demokratlar (CDU/CSU) blokundan seçkidə namizəd kimi Fridrix Mertz irəli sürülüb. O, 1955-ci ildə Sauerlend bölgəsinin Brilon şəhərində anadan olub, hüquqşünasdır. Mertz 1972-ci ildən XDİ-nin üzvü, 2022-ci ildən isə parlament qrupunun sədridir - əsas müxalifət lideridir. Mertz 1994-cü ildən Bundestaqın üzvü olub, lakin Angela Merkellə fikir ayrılığı səbəbindən 2009-cu ildə seçkidə iştirak etməyib. 2021-ci ildə isə yenidən Bundestaq deputatı seçilib. Mertz iqtisadi cəhətdən liberal və sosial mühafizəkar siyasətçi hesab olunur. Sorğulara görə, onun yeni Bundeskansler olmaq şansı ən yüksək sayılır.

Almaniyanın Azad Demokrat Partiyasının (FDP) sədri Kristian Lindner də kanslerliyə namizədlərdən sayılır. Keçmiş maliyyə naziri Lindner 1979-cu ildə Vuppertalda anadan olub və 16 yaşında FDP-yə qoşulub. Politoloq və ehtiyatda olan zabit Şimali Reyn-Vestfaliya ştatının parlamentində, 2009-cu ildən isə fasilələrlə Bundestaqda təmsil olunub. Məhz onun istefası siyasi böhrana və 23 fevral seçkisinə yol açıb. Lindner iqtisadi cəhətdən liberal siyasətçi sayılır, lakin sorğulara görə, onun partiyası beş faizlik baryer səbəbilə Bundestaqda yer almaya bilər.

Yaşıllar Partiyasının kanslerliyə namizədi isə iqtisadiyyat naziri Robert Habekdir. 1969-cu ildə Lübekdə anadan olub, almanşünaslıq üzrə doktorluq dərəcəsi alıb və 2002-ci ildən Yaşıllar Partiyasının üzvüdür. Daha sonra Şlezviq-Holşteyn ştatının hökumətində nazir və baş nazirin müavini olub. İndiki hökumətdə o, vitse-kansler vəzifəsini tutur. Partiya daxilində Habek iqtisadiyyatda və cəmiyyətdə ekoloji dəyişikliklərin kifayət qədər praqmatik tərəfdarı hesab olunur. Son sorğulara görə, onun kansler olmaq şansı azdır.

Siyahıda, həmçinin son partiyanın iki namizədi, həmçinin AFD-nin namizədi Alisa Veydel və başqaları da var.

## Fikirlər fərqlidir...

Qeyd edək ki, seçkiqabağı kampaniyalarda əsas müzakirə predmeti sosial-iqtisadi durum, eləcə də Ukrayna ilə bağlı mövqedir. XDİ-nin namizədi Fridrix Mertz neytral olmadığını, Ukraynanın tərəfində olduğunu deyir. Veydel isə sülh yaradacağını və müharibəni həll edəcəyini bildirir. O, Mertzin Ukraynaya güclü "Taurus" qanadlı raketləri göndərmək təklifinin Rusiyaya qarşı təxribat olduğunu bildirir və ABŞ prezidenti Donald Trampın sülh danışıqlarının irəliləyişinə dair səyləri ni yüksək qiymətləndirir. "Yaşıl namizəd" Habek də daxil olmaqla digər namizədlər isə Mertzin mövqeyini dəstəkləyirlər.

İqtisadi blokda da fikirlər haçalanır - Mertz bildirir ki, ölkənin iqtisadi problemlərinin həllinin açarı bürokratiyanı nəzarət altına almaqdır. O, həmçinin bildirib ki, keçmiş hökumətin Almaniyanın enerji böhranının ən qızğın çağında atom elektrik stansiyalarını bağlamaq qərarı elektrik enerjisinin qiymətlərinin artmasına səbəb olan səhvdir. Habek isə Almaniyanın zəif iqtisadi göstəricilərində ucuz rus qazının olmaması və ixrac bazarının daralmasının rol oynadığını bildirib.

Onun sözlərinə görə, Almaniyanın daha az bürokratiyaya və infrastruktura, qatarlara və körpülərə, eləcə də rəqəmsallaşmaya ehtiyacı var - Almaniyanın daha çox investisiyaya ehtiyacı var. O, həmçinin qeyd edib ki, varlılarla kasıblar arasında uçurum getdikcə genişlənir. Sosial Demokrat (SPD) namizədi Olaf Şoltz da bəzi məsələlərdə Habek ilə razılaşır. Veydel isə bildirir ki, onun partiyası həm ABŞ, həm də Çin ilə yaxşı münasibətlərə açıqdır.



Seçkiöncəsi duellərin (debatlar) nəticələri isə rəy sorğularında öz əksini tapır. "Forsa" anketinin nəticələrinə görə Mertz duellərdən qalib çıxır və səslərin 32 faizi onun lehinədir. Ən çox bəyənilən isə Habekdir - respondentlərin 34 faizi onun fikirləri ilə şərikdir. Buna baxmayaraq, yalnız 13 faiz insan Habekin ölkəyə rəhbərlik edəcəyinə inanır - bunun qarşılığında Mertzə inam

## Yeni koalisiya yarana bilər...

42 faizdir. "YouGov"-un son sorğusuna görə də Mertz ölkənin növbəti ehtimal lideri ola bilər. Ötən bazar günü Mertz SPD və hətta Yaşıllarla koalisiyaya girməyə hazır olacağını söyləyib.

**P.İSMAYILOV**

# Yeni qanun layihəsinə dəyişiklik ediləcək?

## Gürcüstan Parlamenti ABŞ-ın FARA qanununa bənzər layihəni müzakirə edəcək

Yaxın zamanda Gürcüstan parlamentində xarici agentlər haqqında qanunda yeni dəyişikliklər ilə bağlı qanun layihəsi müzakirəyə qoyulacaq. Hakim partiyanın icraçı katibi Mamuka Mdinaradze yerli mətbuata açıqlamasında bildirib ki, yeni qanun layihəsi ABŞ-da qüvvədə olan FARA (“Foreign Agents Registration Act”) qanuna oxşar olacaq.

Xatırladaq ki, Gürcüstanda xarici agentlər haqqında qanun 2024-cü ilin mayında qəbul edilib. Sözügedən qanun layihəsi əsasən gəlirlərinin 20 faizdən çoxu xaricdən daxil olan qeyri-hökumət təşkilatları və müstəqil media qurumlarına aiddir. Bu qanuna görə, ölkədə fəaliyyət göstərən qeyri-kommersiya hüquqi şəxslər və media qurumları hər il yanvar ayında Ədliyyə Nazirliyinə öz xərcləri barədə hesabat təqdim etməlidirlər. Bu öhdəliyi yerinə yetirməkdən boyun qaçıran təşkilatlar və qurumlar qanuna müvafiq qaydada cərimə olunacaqlar.

### ABŞ-dakı qanun nə ilə fərqlənir?

ABŞ-da xarici agentlər haqqında qanun layihəsi -FARA xarici maraqları təmsil edən fiziki və ya hüquqi şəxslərin fəaliyyətinin məhdudlaşmasına yönəlib - bu qanuna görə, müxtəlif ölkələrə, təşkilatlara və ya siyasi xadimlərə lobbiçilik edən və ya onların maraqlarının təminatı üçün vəkillik fəaliyyəti ilə məşğul olan fiziki və hüquqi şəxslər Ədliyyə departamentində qeydiyyatdan keçməli və dövlət qurumuna maliyyə imkanları, o cümlədən lobbiçilik etdiyi ölkələr və təşkilatlar ilə əlaqələri barədə hesabat təqdim etməlidir. Bu qanunda həbs cəzası ilə yanaşı, cərimələr ilə bağlı müddəalar da əks olunub.

### Aİ-dən hansı reaksiya gözlənilir?

Bildiyimiz kimi, Gürcüstanda xarici agentlər haqqında qanun layihəsi Aİ tərəfindən birmənalı qarşılanmayıb - 2024-cü ilin yazında Gürcüstan parlamentində bu qanun müzakirə olunan zaman Brüssel hakim partiyaya bu qanunun Avropanın norma və dəyərlərinə zidd olması ilə bağlı xəbərdarlıq edirdi. Aİ-nin Gürcüstandakı səfiri Pavel Qreçinski “Reuters”-ə açıqlamasında qeyd edirdi ki, bu qanun Gürcüstanda qeyri-hökumət təşkilatlarının fəaliyyətini, söz və mətbuat azadlığını məhdudlaşdıracaq. Aİ-nin bir çox rəsmiləri də bu fikirləri səsləndirirdi-



lər.

Ancaq Gürcüstan hakimiyyəti dəfələrlə bildirib ki, bu qanun layihəsi demokratik dəyərlərlə ziddiyyət təşkil etmir və onların əsas məqsədi daxili sabitlik və təhlükəsizliyin təminatı istiqamətində ölkədə xarici təsir imkanlarını məhdudlaşdırmaqdır. Parlamentdə müzakirələr zamanı spiker Şalva Papuaşvili bəyan edib ki, xarici donorlar Gürcüstanda radikal qrupların və partiyaların məxfi maliyyələşməsini artırıb. 2024-cü ilin aprelin 3-də “Gürcü Arzusu” fraksiyasının rəhbəri Mamuka Mdinaradze brifinqdə QHT-lərin xaricdən qəbul etdiyi vəsaitin 90% faizinin açıqlanmadığını, bunun dövlət təhlükəsizliyinə təhdid törətdiyini bildirib.

Gürcüstan hakimiyyətinin əsaslı bəyanatlarına baxmayaraq, başqa ölkələrin daxili işlərinə müdaxilə etməyə öyrəşən Aİ Gürcüstanın yüksək vəzifəli şəxsləri ilə görüşləri dayandırdı, gürcü diplomatlarına viza prosedurları tətbiq etdi, son anda isə Gürcüstanın ittifaqa üzvlüyü donduruldu.

Yəqin ki, Aİ rəsmiləri yeni qanun layihəsinin də demokratik prinsiplərə “zidd” olduğunu bəhanə gətirərək, Gürcüstana qarşı yeni məkrli planlar qurmağa çalışacaqlar - qarşılıqlı etibarı sarsıdacaq qərarlar qəbul edəcəklər, hətta təhdidə əl ata bilərlər.

Bayden administrasiyası da Gürcüstana ciddi təzyiqlər göstərirdi - ölkədə sabitliyi pozmaq üçün Aİ ilə bir-

### Tramp ümidverici ola bilər

ləşərək Tiflisdə və ölkənin digər şəhərlərində ardıcıl etiraz aksiyalarının təşkilinə dəstək verirdi. Amma böyük ehtimalla, eyni münasibət Tramp administrasiyasından gözlənilməyəcək - Gürcüstanın Prezidenti Mixail Kavelaşvili deyib ki, ABŞ-dakı prezident seçkilərində Donald Trampın qələbəsindən sonra dünyadakı psevdoliberal nizamda dəyişikliklər başlayıb.

“Dəyərlərimizin və dünyagörüşlərimizin üst-üstə düşməsi məndə dərin bir inam yaradır ki, yeni administrasiya dövründə biz ABŞ-la münasibətləri bərpa edə və normallaşdıra biləcəyik” - deyə bildirən Kavelaşvili ölkəsinin ənənəvi dəyərlərin qorunmasına hər zaman önəm verəcəyini vurğulayıb.

*Yunis ABDULLAYEV*

# ABŞ Ukraynaya nüvə silahı verəcək?

## Pentaqon rəhbərindən “siyasi gediş”

ABŞ-ın müdafiə naziri - Pentaqonun rəhbəri Pit Heqset Ukrayna ilə bağlı maraqlı açıqlamalar verib. O, “Breitbart News”-a müsahibəsində Ukraynaya nüvə silahının verilməsi ehtimalını inkar etməyib. Heqset vurğulayıb ki, bu barədə qərarın verilməsi ABŞ Prezidenti Donald Trampın iqtidarındadır. Pentaqon rəhbəri Ukraynanın NATO-ya üzvlüyünün qeyri-mümkün olduğunu da bildirib: “Mən sadəcə, hazırkı reallığı dilə gətirdim - mövcud şərtləri nəzərə aldıqda, Ukraynanın NATO-ya üzvlüyü az ehtimaldır. Lakin heç kim 25 il və ya daha uzun müddət üçün dəqiq proqnoz verə bilməz,” - deyə o, bildirib.

Ukraynaya sülhməramlıların göndərilib-göndərilməməsi məsələsinə gəlincə, Heqset belə bir qərarın veriləcəyi təqdirdə NATO-nun bu məsələyə müdaxilə etməməsinin zəruriliyini vurğulayıb: “Ukraynadakı sülhməramlılar NATO-nun himayəsi xaricində olmalı və 5-ci maddəyə daxil edilməməlidir. Orada olan sülhməramlılar əsla 5-ci maddənin istifadəsi üçün əsas olmamalıdır”. Ardınca o, əlavə edib ki, bu missiyanı yalnız Avropa üzərinə götürməlidir: “Birləşmiş Ştatlar Ukraynaya qoşun göndərməyəcək və sülhməramlı missiyanın parçası olmayacaq. Bu missiyanı Avropa həyata keçirməlidir”.

Müharibədən sonra - gələcəkdə Kiyevin güclü təhlükəsizlik təminatlarına ehtiyacı olduğunu deyən Heqset qeyd edib ki, NATO bu istiqamətdə lazımi addımlar atmalıdır: “Üçüncü Minsk razılaşmasına ehtiyac yoxdur. NATO diplomatiya klubu olmaqdan çıxıb daha güclü, daha dayanıqlı təşkilat olmalıdır. Eyni zamanda, bunun üçün Avropa hərbi xərcləri daha da artırmalıdır”.

Artıq bəzi ekspertlər Pit Heqsetin Ukraynaya nüvə silahının verilməsi ehtimalı ilə bağlı səsləndirdiyi fikirləri şərh etməyə başlayıblar - onlar hesab edirlər ki, bu, Moskvanı tez bir zamanda danışıqlar masası arxasına otuzdurmaq üçün Kremlə ciddi bir mesajdır. - yəni Vaşinqton istəsə, belə bir addım ata bilər.

### Tramp qısa müddətdə atəşkəsə nail olmaq istəyir

Məsələ ilə bağlı siyasi şərhçi Elşən Mustafayev “Yeni Azərbaycan” qəzetinə şərhində qeyd edib ki, hər iki tərəf arasında atəşkəs sazişi imzalana bilər, amma danışıqlar uzun müddət davam edəcək. “Hazırda gedən danışıqlar yalnız bu istiqamətdədir. Atəşkəs isə hələ torpaqların geri qaytarılması, sülh müqaviləsinin bağlanması və s. demək deyil. Hazırda atəşkəslə bağlı danışıqlar çox çətin gedir, buna görə də sonrakı mərhələnin daha ağır olacağını hesab edirəm. Əgər atəşkəs razılaşması əldə olunarsa, böyük ehtimalla, hazırda orduların olduğu yerdə qalacağı şübhəsizdir. Sonra yaradılacaq hər hansı format çərçivəsində sülh danışıqları aparılacaq. Bu danışıqlar qısa müddət sonra dayandırılıb müharibə fazasına da qayıda bilər. Yəni uzun illərlə müzakirəsi davam edən münaqişəyə çevriləcək”.

### ABŞ nüvə riskinə getməyəcək

Politoloq bildirib ki, ABŞ Ukraynanı Rusiyaya qurban verməyəcək, amma onu da vurğulayıb ki, istənilən halda Ukraynanı nüvə silahı ilə təmin etmək ideyasını yaxına buraxmayacaq: “Bu, Rusiyanı açıq şəkildə nüvə müharibəsinə cəlb etmək anlamına gələ bilər. Rusiya hərbi sənaye kompleksi nə qədər böhran keçirsə də, döyüşən əsgər cəhətdən səfərbərlik məsələsində problem yaşasa da, iqtisadi çöküşü sürətlə davam etsə də, nüvə potensialı ilə bağlı problemi yoxdur. Münaqişə nüvə silahı mərhələsinə keçərsə, qlobal dünya üçün çox ağır fəsadlara səbəb olacaq. Bu da Qərbi çox narahat edir. Bu səbəbdən hesab edirəm ki, Ukraynaya nüvə silahının veriləbiləcəyi ilə bağlı ehtimalların əsası yoxdur. Onu da qeyd edim ki, ABŞ-ın Rusiyanı zəiflədib istədiyini əldə etmək üçün apardığı hazırkı siyasət kursu daha məqsədəuyğun hesab olunur”.

### Ukraynanın təhlükəsizliyi nə yerdə qalacaq?



E.Mustafayevin sözlərinə görə, Vaşinqton Ukraynanın təhlükəsizliyinə təminat verməyə çalışacaq: “ Əgər münaqişə dondurularsa, yaxud gələcəkdə həll olunarsa, Ukraynanın təhlükəsizlik məsələsi mütləq ön plana çıxacaq. Elə bir yol müəyyən ediləcək ki, gələcəkdə Rusiyanın hər hansı təhdidi havada qalsın”. Politoloq, həmçinin vurğulayıb ki, Qərb vaxtilə bu məsələdə ciddi səhvlərə yolverib: “1994-cü ildə SSRİ vaxtından Ukraynada qalmış nüvə silahlarının taleyi müzakirə olunarkən, Qərb və ABŞ həmin silahların Rusiyaya verilməsini təklif etmişdilər və əvəzində Ukraynaya təhlükəsizlik təminatı verəcəyini söz vermişdilər. Amma o zamankı prezident Boris Yeltsini özlərinə loyal hesab etdiklərindən və Rusiyanın Qərbə inteqrasiya istiqamətində ciddi addımlar atacağını düşündüklərdindən ciddi səhvə yol verdilər - Ukraynaya lazımi qaydada təhlükəsizlik zəmanəti vermədilər. Hazırda baş verən hadisələrdən sonra hər hansı addım atmaq gecdir. Əgər həmin vaxt nüvə başlıqları Ukraynada qalsa idi, bu gün regionda heç bir gərginlik olmayacaqdı”.



### Ukraynaya sülhməramlı kontingent göndəriləcək?

“Təbbi ki, atəşkəslə bağlı danışıqlarda sülhməramlı məsələsi müzakirə olunacaq. Amma hesab etmirəm ki, Rusiya buna razı olacaq. Çünki belə bir halda Aİ və ABŞ əsgərlərinin bu missiyanı həyata keçirməsi təklif olunacaq, bu isə Rusiya üçün qəbuledilməzdir” - deyə qeyd edən E.Mustafayev Moskvanın yalnız bu halda sülhməramlı missiyaya razı ola biləcəyini vurğulayıb: “Kreml NATO üzvü olmayan ölkələrin əsgərlərinin BMT çətiri altında bu missiyanı həyata keçirməyə razılıq verə bilər. Amma böyük ehtimalla, Moskva təmas xəttində sülhməramlıların yerləşdirilməsinə razı olmayacaq. Çünki Kremldəkilər 1000 kilometdən artıq cəbhə xətti boyunca on minlərlə başqa ölkənin əsgərinin yerləşdirilməsini Rusiyaya qarşı təhlükə perspektivi kimi görürlər. Ola bilsin ki, atəşkəsə nəzarət edən monitorinq qrupunun yaradılmasına razılıq versinlər. Lakin bütün bunlar danışıqlar prosesində masaya qoyulacaq şərtlər və təkliflərdən asılı olacaq”.

*Yunis ABDULLAYEV*

# Kilsədə metafizik macəra

## Viktor Hüqonun “Paris Notr-Dam kilsəsi” romanı haqqında

**əvvəli ötən saylarımızda**

Bir neçə həftə sonra, martın əvvəllərində kapitan Feb de Şatoper nişanlısıyla görüşməkdən ötrü onlara gedir. Nişanlısıgilin kilsəylə qabaq-qənşər evi də məşhur meydana baxır. Qızın bir neçə rəfiqəsi onlara qonaq gəlib, əylənmək istəyən kübar qızlar meydanda çalıb-oynayan Esmeraldanı evə çağırırlar. Onlar qaraçı qızına üstdən-aşağı baxsalar da, qızın gözəlliyinə, azadlığına həsəd aparırlar. Esmeraldanın Febə rəğbətini gizlətmədiyini görən ev yiyəsinin halı pisləşir, kübar qızlar peşman olub qaraçı gözəlini evdən qovurlar.

Esmeralda yenə meydanda oxuyub oynamağa başlayır, kilsənin bir pəncərəsindən zəngçi Kvazimodo ona heyranlıqla, başqa pəncərəsindən arxidiakon Frollo hiddətlə baxır. Bu səfər baş keşiş qızın yanında bir kişinin də olduğunu görür, onun kimliyini bilməkdən ötrü aşağı enəndə iki ay qabaq yoxa çıxmış keçmiş tələbəsi Pyer Qrenquarı tanıyır. Klod ondan Esmeralda barədə ətraflı məlumat istəyir. Şair deyir ki, bu saf, mələksima qızı vaxtilə qaraçılar oğurlayıblar, o da üstündə gəzdirdiyi sehirli amulet vasitəsiylə valideynlərini tapmağa çalışır. Buna görə də bakirəliyini göz bəbəyitək qoruyur, belə bir inam var ki, talisman yalnız bakirə qızlara kömək olur. Şən, xeyirxah, mərdanə xasiyyəti Esmeraldanı hamıya sevdirib. Özünün deməsinə görə, onun bu şəhərdə yalnız iki düşməni var - biri Roland qülləsinə qapanmış, qaraçılara nəyə görəsə dərin nifrət bəsləyən dəli qadın (Esmeralda o qadının öz anası olduğunu hələ bilmir), biri də onu qarabaqara izləyən hansısa divanə keşiş.

Az sonra avara qardaşı Jan keşişdən pul istəməyə gəlir, Klod onu başdan eləməyə çalışsa da, alınmır. Kilsədən çıxanda Jan Feblə rastlaşır, tanışlar keşişin puluyla mey içməyə gedirlər. Onları izləyən, söhbətlərini dinşəyən Klod Frollo həmin axşam Febin bir aradüzəldən qarının evində Esmeralda ilə görüşəcəyini öyrənir. Qız kapitana necə uyubsa, ondan ötrü sehirli amuletdən belə keçməyə hazırdır: Feb yanında olandan sonra ata-ana onun nəyinə gərəkdir?

Qızla oğlanı pəncərədən güdən keşiş sevgililərin bir-birinə sarılıb bihuş olduğunu görcək özünü onların arasına atır, bir göz qırpımında bıçağı Febin kürəyinə saplayıb qaçır. Esmeralda bayılıb özündən gedir, ayılanda isə eşidir ki, cadugər qaraçı qızı kral nişançısı kapitan Febi öldürüb. Onu həbs eləyirlər.

***

Bir ay sonra Pyer Qrenquar təsadüfən Ədalət sarayına girəndə Esmeraldanın mühakimə olunduğunu görür. Qız cinayəti üstünə götürmək istəməsə də, həm qatil, həm fahişə, həm də cadugər olduğunu dözülməz işgəncə altında onun boynuna qoyurlar. Nahara gecikən hakimlər tez-tələsik Esmeraldaya edam hökmü kəsirlər. Baş keşiş həqiqətin üzə çıxması üçün dil tərpədib addım atmır. Hökmün icrasına qədər qızı yeraltı qazamatda saxlayırlar. Esmeraldanın ölümü səbirsizliklə gözlədiyi zirzəmidə Klod Frollo onun görüşünə gəlir, qarşısında diz çöküb qızı birlikdə qoşulub qaçmağa razı salmaq istəyir. Esmeralda riyakar keşişin xəstə ehtirasını da, onun xilas planını da qətiyyətlə rədd eləyir. Kin püskürən keşiş qızın əzabını artırmaq üçün ona Febin öldüyünü söyləyir.

Feb isə ölməyib, sağdır. Nişanlısı yenidən cəngavər nişançının könlündə taxt qurub. Edam günü bir cüt kəklik kimi qaqqıldaşa-qaqqıldaşa onlar meydana baxan eyvandan Esmeraldanın başında qurulmuş tamaşanı seyr eləyirlər. Febin nişanlısı qaraçı qızı tanıyır. Arxidiakon məhkumu qurtarmaq üçün daha bir cəhd göstərir, ancaq azad mühitdə böyümüş qız İblisin qurtuluş qandalından yenə boyun qaçırır. Bu vaxt Esmeraldanın da gözü aralıdan onun edamına tamaşa eləyən Febi alır, qızın yadına düşür ki, onu krala xidmət göstərən bu igid oğlanı qətlə yetirdiyinə görə edama məhkum eləyiblər. Bir zaman xilaskarı sandığı, sonra ölmüş bildiyi nişançını görəndə qız bayılır. Kvazimodo əvvəlcədən kilsənin binasına bənd elədiyi kəndirlə meydana sallanıb Esmeraldanı cəlladın əlindən alır, kütlənin heyrət dolu bağırtıları altında qızı kilsəyə salıb Tanrının topdağıtmaz dərgahında, Məryəm ananın müqəddəs ocağında ona sığınacaq verir.

Klod Frollo baş götürüb şəhər kənarına qaçır. Gecə kilsəyə qayıdıb Kvazimodonun hücrəsində Esmeraldanı görəndə elə bilir havalanıb, onu qara basır. Kvazimodo ac-susuz, çılpaq qıza səbətdə yemək-içmək, boğçada geyim-kecim - ağ rahibə paltarı, ağ bürüncək gətirir. Bundan sonra mələyə çevrilmək üçün Esmeraldanın bircə qanadları çatmır.

Qaraçı qızı yeni şəraitə, yerdən uzaq metafizik aləmdə, yolunu gözlədiyi Ağatlı Oğlanın dərgahında yaşamağa yavaş-yavaş alışır, qozbel, eybəcər, kar-kor, həm ayaqdan, həm dildən axsaq kilsə zəngçisiylə birtəhər dil tapır. Kvazimodo onun ismətini təkcə Klod atadan yox, özündən də qoruyur. Bu canfəşanlıq nədən ötrüdür - o bilmir, ancaq boynuna qoyulmuş müqəddəs missiyanı canı bahasına yerinə yetirməli olduğuna onun heç bir şübhəsi yoxdur; ümumiyyətlə, keşiş Frollonu hörümçək toru kimi sarmış şübhə - bu şeytani vəsvəsə ona tamam yad duyğudur. Kvazimodo qəlbinin qandığı fəhmlə bircə bunu bilir ki, divanəsi olduğu Esmeraldanın məsumluğunu qorumaq onun boynunun borcudur, qız Tanrının hüzuruna pak, təmiz qayıtmalıdır. Odur ki, Məryəm ananın tapınağına sığınmış mələyin rahatlığını pozmamaq, onun dumduru canına qorxu, səksəkə xalı salmamaq üçün bədheybət vücudunu da qaraçı qızından uzaq tutmağa çalışır.

***

Bu minvalla Esmeraldanın könül yarası yavaş-yavaş qaysaq bağlayır. Günün birində qız kilsənin pəncərəsindən Febin meydanda olduğunu görüb itaətkar Kvazimodonu onun yanına göndərir, yerini nişan verib sevgilisini hücrəsinə, özünə çağırır. Bu vaxt Kvazimodonun onu kapitana qısqanmaq ağlına belə gəlmir, çünki o, saf könültək duyub qabıqsız ruh kimi dolanır. Kvazimodo yalnız Esmeraldanın yox, onun sevib-seçdiyi kişinin də qulluğunda durmağa, ona fəda olmağa hazırdır.

Kilsə zəngçisini o dünyadan gəlmiş elçi sanan Feb isə çağırışa getməkdən boyun qaçırır. Kapitan Feb nə dediyini qanmasa da, haqlıdır: bəli, Kvazimodo metafizik aləmdən ona göndərilmiş elçidir, Esmeralda indi tamam ayrı dünyada yaşayır; elə bir dünyada ki, o dünyanı görmək Febə heç bir zaman qismət olmayacaq. Oxu hədəfdən yayınmayan mahir nişançı ürək-könül oylağında naşı ovçudur, ondan ötrü qadın vücudu içində məstanə mey xumarlanan gil kuzədir, başqa heç nə.

Klod Frollo indi də Esmeraldanı Kvazimodoya qısqanır, gecələrin birində qızın hücrəsinə təpilib, onu qamarlamaq istəyir. Zəngçalanın ruhunu daim oyaq saxlayan könül zəngi dərhal işə düşüb onu duyuq salır, Kvazimodo qüvvətli qollarıyla keşişi qızdan aralayır. Dar günə saxladığı bəndəsini Şeytanın əliylə qoruyan Tanrı indi də öz bakirə Mələyini həmin İblisdən həmin bəndənin gücüylə qoruyur. Belə çıxır ki, İblis illər boyu bəslədiyi qozbeli başına bəla yetişdirirmiş, özünü də, başqalarını da gəmirməyə hazır quduz ehtirasının qarşısına ətdən çəpər çəkirmiş. Ancaq bundan əvvəl İblis özü də bakirəlik taxtından düşürmək istədiyi elə həmin Mələyi nişançının qanlı oxundan qorumuşdu. Orada Şeytan qoruyan, burada qorunulandır. Tanrının bu qəliz əməliyyatlarından baş açmaq müşkül məsələdir.

Klod Frollonun təhrikiylə Pyer Qrenquar dilənçilər, oğrular, avaralar güruhunu Esmeraldanın geri alınması üçün səfərbər eləyir. Qara kütlə Notr-Dam kilsəsinə hücum çəkir, günahdan don geyinmiş cinayət aləmi Allaha üsyan qaldırır. Qulağı eşitmədiyindən Kvazimodo elə başa düşür ki, gözü qızmış camaat Esmeraldanı öldürmək istəyir, halbuki onlar qızı qurtarmağa gəliblər. Bir yandan da axı məbəddən eşikdə qıza dar ağacı qurulub, onu kilsədən çıxarsalar, Esmeralda edam olunacaq. Fatalist düşüncəylə, dialektik məntiqlə yanaşsaq, bu xeyirdə böyük ziyan var. Deyilən səhnə, əlbəttə, rəmzi məna daşıyır: aşağıdan xeyir kimi görsənən əməl yuxarıdan baxanda fəlakət kimi görünür. Möminlərin ən müdrik dualarından biri də təxminən belə səslənir: mən istəyən kimi yox, Allah istədiyi olsun!

Kvazimodo təkbaşına qüdsiyyətinə əl uzanan, balta çalınan Dərgahın, saflığına təcavüz olunan Mələyin müdafiəsinə qalxır. O, bir Tanrı cəngavəri, haqq mücahidi kimi qaraçı qızın uğrunda vuruşan qoşuna qarşı müttəfiqinin ordusunu daşa basan Məcnun sayağı dəlicəsinə şövqlə döyüşür, canını oda atmaqdan, Allaha sipər olmaqdan çəkinmir. Təcavüzkar güruhun üstünə kilsənin yuxarı qatından ağır daşlar, millər, pərdilər yağdırır, gözüqanlı kütlənin başına ərinmiş qurğuşun tökür. Kral qara camaatın üsyanını yatırmaq üçün hadisə yerinə qoşun göndərir.

***

Şair Pyer Qrenquarla arxidiakon Klod Frollo Esmeraldanın kilsədən qaçmağına yardım göstərirlər. Qızı Qrev meydanına gətirən keşiş onun qarşısına ölümcül şərt qoyur: ya mən, ya da dar ağacı. Qız onu yenə rədd eləyir. Xilas yolu isə görünmür - qaraçı qiyamından xəbər tutan kral şəxsən o cadugər qızı tutub asmaq göstərişi verib.

Qarışıqlıqda Esmeralda Roland qülləsindəki hücrədə saxlanan qadının doğma anası olduğunu bilir, ana-balanın əli bir-birinə çataçatda cəllad qadını vurub öldürür, qızın boğazına kəndir salıb dar ağacına doğru sürüyür. Metafizik aləmdən fani dünyaya enən Esmeraldanın indi ora qayıtmaq üçün yalnız bir yolu qalıb.

Arxidiakonla zəngçalan kilsənin ucalığından Qrev meydanındakı edam səhnəsinə tamaşa eləyirlər: “Kvazimodo yerdən üç arşın hündürlükdə zavallı qızın kəndirdən sallandığını, cəlladın isə onun çiynindən yapışdığını gördü. Kəndir bir neçə dəfə fırlandı, qaraçı qızın bədəni səyridi. Klod boğazını uzadıb gözlərini dar ağacından ayırmır, o dəhşətli səhnəni, cəlladla gənc qızı - hörümçəklə milçəyi seyr eləyirdi. Bu müdhiş dəqiqədə baş keşiş yalnız insanlığını itirmiş bir adamın gülə biləcəyi tərzdə iblisanə qəhqəhə çəkdi. Kvazimodo onun qəhqəhəsini eşitməsə də, görürdü. Zəngçi Kloddan bir neçə addım geri çəkilib qəfildən hiddətlə ona hücuma keçdi, qüvvətli əlləriylə onu uçuruma itələdi...”

Sonuncu - on birinci kitabın son iki fəslindən biri “Febin evlənməsi”, o biri “Kvazimodonun evlənməsi” adlanır. Bunlar bir növ epiloqu əvəz eləyir. Birinci fəsildə öyrənirik ki, Pyer Qrenquar astronomiya, fəlsəfə, memarlıq kimi bir sıra sahələrə baş vurandan sonra yenidən teatra qayıdıb özünü uğurlu dramaturq kimi təsdiqlədə bilib. Hərçənd şair özü bunu ən mənasız məşğuliyyət, həyatının faciəli sonu adlandırır.

Həmin kiçik fəsli müəllif bu cümləylə bitirir: “Feb de Şatoperin də sonu faciəli oldu: o evləndi”.

Yekun fəsildə isə Kvazimodonun aqibətindən bəhs olunur:

Dünyada ən çox sevdiyi iki varlığın - qaraçı qızla baş keşişin öldüyü gün Notr-Dam kilsəsinin zəngçisi qeybə çəkilir. Bundan sonra onu gördüm deyən olmur, başına nə gəldiyindən kimsə xəbər tutmur. Xeyli sonra bilinir ki, Esmeraldanın cəsədinin atıldığı zirzəmiyə düşən Kvazimodo orada özünü könüllü ölümə məhkum eləyib, meyidin yanına uzanıb canını tapşırıb: “Onu qucaqladığı skeletdən ayırmaq istəyəndə dağılıb külə dönmüşdü”.

Bəli, daim şər istəyən, ancaq xeyir törədən fəndgir Tanrının qurduğu oyunun nəticəsində gözəllər gözəli Esmeralda heç kimin adam saymadığı eybəcər Kvazimodoya qismət olur. Notr-Dam kilsəsindən başlanan eşq macərası belə bir xoşbəxt sonluqla başa çatır.



*F.Uğurlu*

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Qasid” MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**






# Hüquqi dövlət quruculuğunda...

## Vətəndaş cəmiyyətinin rolu böyükdür!

**Vətəndaş cəmiyyəti və hüquqi dövlət quruculuğu hər bir dövlət üçün öz aktuallığını qorumaqdadır. Azərbaycanda da bu sahədə davamlı islahatlar aparılır. Ölkəmizin hər bir vətəndaşın qarantına çevrildiyinin bütün dünyada qəbul olunması heç də təsadüfi sayılmır. Çünki Azərbaycanda vətəndaş cəmiyyətinin söykəndiyi əsas prinsiplərdən biri insan-vətəndaş hüquqlarının və azadlıqlarının təminatıdır. Nəzərə almaq lazımdır ki, vətəndaşların hüquqları və azadlıqları təmin edilmədən nə vətəndaş cəmiyyətindən, nə də hüquqi dövlətdən danışmaq olmaz. Elə buna görə də dövlətimiz vətəndaş hüquqlarının və azadlıqlarının keşiyindədir.**

### Demokratik cəmiyyətin təsdiqi...

Mövzunu “Yeni Azərbaycan”a şərh edən Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Bəhruz Məhərrəmov bildirib ki, hüquqi dövlət qurmaqda, vətəndaş cəmiyyətinin bərqərar edilməsinə nail olmaqda hər bir cəmiyyət maraqlıdır. O, qeyd edib ki, Azərbaycanda qanunun aliliyini təmin edən hüquqi dövlət qurulması, eləcə də vətəndaş cəmiyyətinin bərqərar olması ölkə vətəndaşları üçün qürurvericidir: “İlk növbədə ona görə ki, hüquqi dövlətin və vətəndaş cəmiyyətinin olması ölkədə demokratiyanın, demokratik cəmiyyətin olduğunu təsdiq edir. Ölkəmizdə hüquqi dövlətin qurulmasına və vətəndaş cəmiyyətinin bərqərar olmasına görə qürur hissi keçirməyə məhz bu baxımdan hər birimizin haqqı var. Belə bir cəmiyyətin inkişafından, yüksəlişindən danışmağa dəyər”.

### Demokratiyanın güclənməsində vətəndaş cəmiyyətinin rolu

Deputat qeyd edib ki, vətəndaş cəmiyyətinin əsas funksiyalarından biri demokratik idarəetməni gücləndirməkdir: “Siyasi iştirakçılığı təşviq etməklə, vətəndaş cəmiyyəti təşkilatları insanlara qərar qəbuletmə proseslərində iştirak etmək imkanı verir. Onlar seçicilərin maarifləndirilməsini təşviq edir, seçkilərin şəffaflığını müdafiə edir və müxtəlif səslərin eşidilməsini təmin etməyə nail olurlar.

Bundan əlavə, vətəndaş cəmiyyəti hökumətlərin və institutların demokratik prinsipləri dəstəkləmələrini təmin etmək üçün onların hərəkətlərinə nəzarət edən birlik kimi çıxış edir. Məsələn, müdafiə qrupları vətəndaş, ifadə azadlığının və insan hüquqlarının müdafiəsi üçün kampaniya aparır. Bu hal demokratiya daxilində nəzarət və tarazlığın qorunması, hakimiyyətdən sui-istifadə hallarının qarşısının alınması və ictimai etimadın gücləndirilməsi üçün vacibdir. Vətəndaş cəmiyyəti sosial bərabərsizliklərin həllində və inklüzivliyin təşviqində mühüm rol oynayır. O, fərqli qruplar üçün təşkilatlanma və hüquqlarını müdafiə etmək üçün platforma təmin edir. Fəallıq və ictimai kampaniyalar vasitəsilə vətəndaş cəmiyyəti gender bərabərsizliyi, irqi ayrı-seçkilik, təhsil və səhiyyə xidmətlərinə çıxış kimi məsələlər haqqında məlumatlılığı artırır. Vətəndaş cəmiyyəti institutlarının inkişafında, formalaşmasında, əməkdaşlıq istiqamətlərinin müəyyənləşdirilməsində dövlətin rolu mühümdür”.


Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “Vətəndaş cəmiyyəti, hüquqi dövlət quruculuğu” istiqaməti üzrə hazırlanmışdır


### Vətəndaş cəmiyyəti qlobal dinamikaya uyğunlaşmalıdır

B.Məhərrəmovun sözlərinə görə, vətəndaş cəmiyyəti təşkilatları innovativ ideyaların və mürəkkəb sosial problemlərin həllinin təkanverici qüvvələridir: “Vətəndaş cəmiyyətinin səciyyəvi xüsusiyyəti olan könüllülük insanlarda ortaq məsuliyyəti inkişaf etdirməklə yanaşı, həvəsli olduqları işləri dəstəkləməyə imkan verir. Bu fəal iştirak sosial əlaqələri gücləndirir və ictimai rifahı artırır. Xüsusilə gənclərin prosesə cəlb edilməsi vətəndaş cəmiyyətinin inkişafı üçün mühüm aspektdir. QHT-lər gəncləri inkişaf təşəbbüslərinə cəlb etməklə gələcək liderlər nəslini yetişdirirlər. Təhsilə, liderlik təliminə və bacarıqların artırılmasına yönəlmiş proqramlar gəncləri icmalarında müsbət dəyişikliklərə səbəb olmaq üçün lazım olan vasitələrlə təchiz edir.

İnkişaf etmək üçün vətəndaş cəmiyyəti dəyişən qlobal dinamikaya uyğunlaşmalıdır. Rəqəmsal alətlər və texnologiyaların tətbiqi əhatə dairəsini və əməliyyat səmərəliliyini artıra bilər. Daha güclü koalisiyaların qurulması və sektorlararası tərəfdaşlıqların təşviqi onların təsirini gücləndirir və davamlılığı təmin edir. Beləliklə, vətəndaş cəmiyyəti fərdlər, icmalar və institutlar arasında uçurumları aradan qaldıran, fəaliyyət göstərən cəmiyyətin həyati sütunudur. Onun demokratiyaya, sosial ədalətə, cəmiyyətin dayanıqlığına və innovasiyaya verdiyi töhfələr əvəzolunmazdır.

Ümumiyyətlə, Azərbaycanda vətəndaş cəmiyyəti quruculuğu istiqamətində atılan addımlar ardıcıl və məqsədyönlü olması ilə xarakterizə olunur. İctimai təsisatların, qeyri-hökumət təşkilatlarının, medianın fəaliyyəti üçün hüquqi zəmin, qanunvericilik bazası və praktik müstəvi yaradılıb. Nəticə etibarı ilə də Azərbaycan vətəndaş cəmiyyətinin tərəqqisində daha böyük nailiyyətlərin müəllifinə çevrilir”.

*Yeganə BAYRAMOVA*

# Dənizin ən iri “sakin”lərindən biri

## Balinalar haqqında maraqlı faktlar...

### 19 fevral Balina Günüdür

Dünyanın ən böyük və heyranedici dəniz heyvanlarından biri olan balinalar həm alimlərin, həm də təbiətsevərlərin diqqətini cəlb edib. Bu möhtəşəm heyvanların öyrənilməsi, onların bioloji xüsusiyyətləri, yaşayış mühiti və davranış qaydaları haqqında məlumat toplamaq insanlara dəniz ekosistemlərinin qorunması və sağlamlığı haqqında dərin anlayış verir. Fevralın 19-u bütün dünyada dəniz məməlilərinin müdafiəsi və ya Balina Günü kimi qeyd olunur. Bu gün 1986-cı ildə dünyada balina ovunun qadağan olunması zamanı qeyd edilməyə başlayıb. Dəniz məməlilərinin 200 il ərzində intensiv surətdə ovlanması, onların sayının sürətlə azalması ilə nəticələnib. Bəzi növlər hətta yoxa çıxma təhlükəsi ilə üzləşiblər.

Balinalar dəniz məməlilərinin ən böyük nümayəndələri olaraq müxtəlif növlərə və ölçülərə malikdir. Mavi balina dünyanın ən böyük canlısı olaraq tanınır və bəzi nümayəndələri 30 metrə qədər uzunluğa və 200 ton çəkiyə çata bilər. Bu heyvanlar qidalanma strategiyaları, üzgüçülük bacarıqları və sosial quruluşları ilə də fərqlənir. Balinaların həyatı əsasən onların yaşadıqları dənizlərin səviyyəsində baş verir. Onların dənizdəki həyatları, həm də insanların dəniz mühitlərinə müdaxiləsi ilə sıx bağlıdır. Balinaların qorunması və onlara qarşı təhdidlərin azaldılması dəniz ekosistemlərinin sağlamlığı üçün həyati əhəmiyyət daşıyır.

### Balinaların kommunikasiyası

Balinaların kommunikasiya bacarıqları təbiətin ən mürəkkəb və heyranedici fenomenlərindən biridir. Onlar çox inkişaf etmiş və geniş bir səs spektrində ünsiyyət qura bilirlər. Balinaların istifadə etdiyi səslər insan səsindən çox fərqlidir və geniş məsafələrə yayıla bilir.



### Miqrasiya...

Balinaların miqrasiya davranışları dünyadakı ən möhtəşəm və uzunmüddətli hərəkətlərdən biridir. Hər il balinalar minlərlə kilometr məsafə qət edirlər. Bu miqrasiya əsasən iki məqsədə xidmət edir: yemək axtarışı və nəsil artırma. Balinaların ən məşhur miqrasiya marşrutları, qışda isti su hövzələrinə doğru gedib, yazda isə daha soyuq sulara geri qayıtmalarını nəzərdə tutur. Bu miqrasiya dövrü balinaların həyat dövrünün təməl bir hissəsidir. Balinalar miqrasiya prosesində çoxsaylı çətinliklərlə üzləşirlər: səyahətləri əsnasında yemək tapmaq, təhlükəli sulara daxil olmaq, təbii fəlakətlər və ya insan fəaliyyəti səbəbi ilə təhdidlərə məruz qalmaq. Bu səbəblə balinaların bu səyahətləri həm onların mövcudluğunun qorunması, həm də bioloji müxtəlifliyin təmin edilməsi üçün mühüm əhəmiyyət kəsb edir.

### Balina “mahnıları”

Balinalar çoxsaylı növ və alt növlərə sahibdirlər, buna görə də onların hər biri özünəməxsus “dil” və səs tonu ilə ünsiyyət qurur. Məsələn, mavi balina uzun məsafələrə yayılan və çox güclü olan ultrasəs səs dalğaları ilə ünsiyyət qurur. Bu səs dalğaları təkcə yaxın mühitlə deyil, minlərlə kilometr uzaqlıqdakı digər balinalar tərəfindən də eşidilə bilər.

Hətta bəzi balina növləri müəyyən bir mahnı oxuyaraq digər balinalarla əlaqə qurur, bu isə onların sosial davranışlarını və digər fərdi xüsusiyyətlərini əks etdirir. Balina “mahnıları” çox mürəkkəbdir və müəyyən mövsümi dəyişikliklərə və ya sosial vəziyyətlərə görə dəyişə bilər. Bir çox alim balinaların bu “mahnı” və səslərinin məqsədini hələ də tam olaraq müəyyənləşdirə bilmir, amma bunun onların nəsil artırma və kommunikasiya prosesləri ilə sıx əlaqəli olduğu məlumdur. Balinaların səs dalğaları, həmçinin digər dəniz canlıları ilə əlaqəli ekosistem davranışlarının baş verməsi üçün çox vacibdir. Balina səsi yalnız ünsiyyət üçün deyil, həm də ekosistemlərdəki digər canlılarla qarşılıqlı təsir yaratmaq üçün istifadə olunur. Tədqiqatçılar balinaların səs ifasında təbiətin və həyatın əsl harmoniyasını tapırlar və bu balinaların nə qədər inkişaf etmiş canlılar olduqlarını bir daha sübut edir.

### Balinaların mühafizəsi

Bir vaxtlar balinalar çox sayda ovlanmış və nəsli kəsilmə təhlükəsi ilə üzləşmişdilər. Bununla yanaşı, balina ovçuluğuna qadağa qoyulsa da, indiyə qədər balinaların təbiətinə ciddi təhdidlər mövcuddur. İnsanların dəniz ekosistemlərinə etdiyi müdaxilələr balinaların yaşayış mühitini və həyat dövrünü təhlükə altına alır. Plastik çirklənmə balina növlərinin həyatını davam etdirməsini çətinləşdirir və onları müxtəlif xəstəliklərə qarşı daha həssas edir.

Beynəlxalq qorunma təşkilatları və qanunvericilik müvafiq olaraq balinaların qorunmasına yönəlmiş bir sıra tədbirlər həyata keçirirlər. Məsələn, Beynəlxalq Balina Ovçuluğunu Qadağan edən Komissiya (IWC) balina ovunun qadağan edilməsi və balinaların qorunması üçün bir çox qanun və qaydalar tətbiq edir. Bu təşkilatın məqsədi balina növlərinin bərpası və ekosistemlərin qorunmasıdır.

*Yeganə BAYRAMOVA*




# Azercell qadınların təhsil imkanlarını genişləndirən layihəyə dəstək oldu

## “Huma Quşu” təhsilə yardım fondu Azercell-in dəstəyi ilə qadınlar üçün təqaüd proqramını elan edir

Azercell-in “Həyatı daha dolğun edirik: Qadınlara Dəstək Proqramı”nın qalibləri fəaliyyətlərini uğurla davam edir. Qeyd edək ki, 2024-cü ilin avqust ayında elan edilən bu sosial layihə müsabiqəsi qadınların iqtisadi müstəqilliyini dəstəkləyən təşəbbüsləri ön plana çıxararaq inklüziv cəmiyyətin qurulmasına töhfə verir.

Proqram qaliblərindən biri olan “Huma Quşu” təhsilə yardım fondu həssas qruplardan olan gənc qadınlar üçün daha geniş təhsil imkanları yaratmağı hədəfləyən təqaüd proqramını elan edir.

“Huma Quşu” proqramının əsas məqsədi qadınların təhsilə çıxışını asanlaşdırmaqla onların sosial fəallığını artırmaq, cəmiyyətdə mövqelərini gücləndirmək və rifahlarını yüksəltməkdir. 2022-ci ildən ildən etibarən fəaliyyət göstərən “Huma Quşu” təhsilə yardım fondu bugünədək 30 tələbəyə təhsil almağa dəstək olub. Yeni proqram çərçivəsində 5 namizədin təhsil xərclərinə dəstək göstərilməsi planlaşdırılır.

“Huma Quşu” təqaüd proqramına həm Azərbaycanda, həm də xaricdə bakalavr və magistratura pillələrində təhsil alan 16-35 yaş arası gənc qızlar və qadınlar müraciət edə bilərlər. Müraciət üçün tələb olunan sənədləri HumaGushuFund@gmail.com ünvanına fevral ayının 20-dək göndərmək tələb olunur.

Ətraflı məlumat əldə etmək üçün https://humagushu.az/ səhifəsinə keçid edə bilərsiniz.


Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4629
Sifariş: 395
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova